**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ İNGİLİS DİLİNİN TƏDRİSİ PROSESİNDƏ TƏLƏBƏLƏRİN MÜSTƏQİL İŞLƏRİNİN TƏŞKİLİNİN ELMİ-PEDAQOJİ ƏSASLARI

İxtisas: 5801.01 – Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (İngilis dilinin tədrisi metodikası)

Elm sahəsi: Pedaqogika

İddiaçı: **Firuzə Ədalət qızı Rzayeva**

Elmlər doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2025**

Dissertasiya işi Azərbaycan Dillər Universitetinin İngilis dilinin tədrisi metodikası kafedrasında yerinə yetirilmişdir.

Elmi məsləhətçi: pedaqogika elmləri doktoru, professor
**Akif Nurağa oğlu Abbasov**

Rəsmi opponentlər: filologiya elmləri doktoru, professor
**Gülbarşın İdrisovna Baygunisova**

filologiya elmləri doktoru, professor
**Azad Yəhya oğlu Məmmədov**

filologiya elmləri doktoru, professor
**Afət Musa qızı Abbasova**

filologiya elmləri doktoru, professor
**İlham Mikayıl oğlu Tahirov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət Pedaqoji Universitetində fəaliyyət göstərən BED 2.15/1 Birdəfəlik Dissertasiya Şurası.

Dissertasiya Şurasının sədri: ____________ tarix elmləri doktoru, professor
**Cəfər Məmməd oğlu Cəfərov**

Dissertasiya Şurasının elmi katibi: ____________ pedaqogika elmləri doktoru, dosent
**Şərafət Aram qızı Baxışova**

Elmi seminarın sədri: ____________ pedaqogika elmləri doktoru, professor
**Dilarə Əbdül qızı İsmayılova**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycanın sosial-iqtisadi inkişafı, intensiv şəkildə və sürətlə genişlənən beynəlxalq əlaqələri, müasir təhsil məkanına inteqrasiya istiqamətindəki səyləri, uğurları və eyni zamanda informasiya məkanının daim yenilənməsi bu sahələrin kadr potensialının vacib şərtlərindən biri olan xarici dillərin tədrisi prosesi qarşısında yeni tələblər qoyur.

Ali təhsil müəssisələrində xarici dillərin tədrisində məzmunun yenilənməsinə ehtiyac müasir sosial-mədəni şəraitlə, yəni, mədəniyyətlərarası ünsiyyətin artan rolu, Azərbaycanın Avropa və dünya iqtisadi birliyinə inteqrasiyası, fərqli mədəniyyətlərin nümayəndələri, fərqli dillərin daşıyıcıları arasında qurduğu əlaqələrlə müəyyən edilir.

Müasir cəmiyyətin tələblərinə cavab verə bilən, öz yaradıcı və peşə səriştəsi ilə fərqlənən, peşə fəaliyyətində qarşıya çıxan problemləri həll edə biləcək hərtərəfli inkişaf etmiş mütəxəssisin hazırlanması təlim və tədris formalarının işlənib hazırlanmasını tələbata çevirir. Onlar tələbələrin yaradıcı və idrak qabiliyyətlərinin inkişafına imkan verir.

Hazırda ali təhsil müəssisələrinin əsas tədris vəzifələrindən biri də peşə səriştəsi ilə seçilən, dəyişən yaşayış şəraitinə tez uyğunlaşan, təşəbbüs göstərmək, müstəqil qərar qəbul etmək bacarıqlarını özündə birləşdirən mütəxəssislər yetişdirməkdir. Bu tələb özünü inkişaf etdirmə, özünü təkmilləşdirmə və şəxsiyyətin özünütərbiyəsini şərtləndirir ki, bu da davamlı təhsilə ehtiyac, tələbələrin idrak fəaliyyətinin və müstəqilliyinin formalaşması və inkişafı ilə, yəni, müasir təhsilin əsas siyasəti ilə üst-üstə düşür.

Ali təhsil müəssisələrində ingilis dilinin tədrisi prosesində tələbələrin müstəqil işlərinin təşkilinin elmi-pedaqoji əsaslarının tədqiqinə, həmin istiqamətdə elmi cəhətdən əsaslandırılmış və eksperimental yolla sınaqdan keçmiş metodik iş üsullarının işlənib hazırlanmasına hədəflənən dissertasiya işinin aktuallığını ön plana çəkir.

Mövzunun işlənmə dərəcəsini öyrənmək məqsədilə araşdırılan elmi-nəzəri ədəbiyyatda diqqəti çəkən ilk məqam ümumtəhsil məktəblərində şagirdlərin müstəqil işlərinin təşkili yollarının araşdırılma-

sıdır. Mənbələrdə belə[1] "müstəqil iş" termininin mahiyyətinin açılması ilə bağlı ziddiyyətli məqamlar mövcuddur.

Bir çox müəlliflərin əsərlərində geniş, konkret, əsaslı fikirlər irəli sürülmüş və təhlillər aparılaraq müəyyən nəticələr əldə edilmişdir. Bunlardan M.Q.Qarunov, V.P.Bəşirov, R.L.Hüseynzadə, İ.L.Bim, K.L.Butyagina, Q.M.Burdenyuk, V.Qraf, R.A.Lozovskaya, Q.V.Roqova, T.Q.Sorokina, E.Y.Tarvidene, A.V.Tretyakova, T.İ.Şalavina, G.C.Hüseynzadə Ə.Ş.Şirəliyev, D.Ə.İsmayılova, A.O.Osmanova, N.E.Zeynalova, R.Abbasov və digərləri əsasən orta təhsildən ali təhsilə keçid mərhələsinin tələbləri əsasında müstəqil işlərin təşkili yollarını araşdırdıqları üçün həmin əsərlərdə ali məktəblərdə ingilis dilinin tədrisi prosesində tələbələrin müstəqil işlərinin təşkilinin tam mənzərəsini görmək mümkündür.

Yuxarıda göstərilənləri nəzərə alaraq qeyd oluna bilər ki, ali təhsil müəssisələrində tələbələrlə müstəqil işin təşkili məsələləri müasir dövrdə də öz aktuallığını qoruyub saxlamaqdadır. Belə ki, tədqiqata cəlb etdiyimiz mövzu mövcud şəraitə və ictimai metodoloji, psixoloji və pedaqoji duruma əsaslanaraq tədqiq olunmalı, təhlil aparılmalı və müasir tələblərə uyğun bir sıra elmi praktik nəticələr göstərilməlidir.

**Tədqiqatın obyekti** ali təhsil müəssisələrində ingilis dilinin tədrisində tələbələrin müstəqil işlərinin təşkili prosesi, **predmeti** isə ali təhsil müəssisələrində ingilis dilinin tədrisində tələbələrin müstəqil işlərinin təşkili metodikasının nəzəri və praktik tədqiqindən ibarətdir.

**Tədqiqatın məqsədi** ali təhsil müəssisələrində ingilis dilinin tədrisi prosesində tələbələrin müstəqil işlərinin təşkili metodoloji, psixoloji və pedaqoji elmi nəzəri əsaslarının işlənib hazırlanması,

---

[1] Есипов, Б.П. Самостоятельная работа учащихся на уроках / Б.П.Есипов. – Москва: Учпедгиз, – 1961. – 139 с.; Мерзлякова, Л.В. Актуализация самостоятельной работы студентов в современном образовательном процессе / Л.В.Мерзлякова, Н.П.Башкова. // Самостоятельная работа студентов: модели, опыт, технологии / под ред. М.Г.Савельевой. – Ижевск: – 2009. – с.181-185; Пидкасистый, П.И. Организация учебно-производственной деятельности студента / П.И.Пидкасистый. – Москва: Педагогическое общество России, – 2004; Campbell, D. Professor Grammar's Rule / D.Campbell. – London: BBC English, – 1991. – 64 p.; Palmer, H.E. The Principles of Language Study / H.E.Palmer. – London: Oxford Universit Press, – 1964. – 142 p.

təcrübədə qoyuluşunun tədqiq olunması və eksperimental şəkildə sınaqdan keçmiş tapşırıqlar sisteminin yaradılmasından ibarətdir.

Tədqiqat işinin məqsədindən irəli gələn aşağıdakı **vəzifələr** müəyyənləşdirilmişdir:

-ali təhsil müəssisələrində ingilis dilinin tədrisində tələbələrin müstəqil işlərinin təşkilinin psixoloji, metodoloji və didaktik əsaslarının müəyyənləşdirilmək;

-tədqiqat üzrə elmi-nəzəri ədəbiyyatı təhlil etmək;

-problem baxımından ali təhsil müəssisəsində mövcud vəziyyəti təhlil etmək;

-dərsliklərdə problemin qoyuluşunun və mövcud vəziyyətin təhlilini aparmaq;

-müstəqil işlərin təşkilinə dair müasir metod və üsulları müəyyənləşdirmək;

-müstəqil işlərin təşkilində tələbələrdə motivasiyanın yaradılmasının səmərəli yollarını aşkara çıxarmaq;

-müstəqil işlərin təşkilində texniki vasitələrdən istifadənin səmərəli yollarını aşkarlamaq;

-ali təhsil müəssisələrində ingilis dilinin tədrisində tələbələrin müstəqil işlərinə dair kompetensiyaları təyin etmək və onların qiymətləndirmə meyarlarını müəyyənləşdirmək;

-müstəqil işlərinin təşkili zamanı tələbələrin qarşılaşdıqları çətinlikləri və onları yaradan səbəbləri araşdırmaq;

-ali təhsil müəssisələrində ingilis dilinin tədrisi prosesində tələbələrin müstəqil işlərinin təşkilinə əsaslanan təlim modellərini müəyyənləşdirmək;

-təyin olunmuş tələblər əsasında təlim modellərinin eksperimental yolla aprobasiyası, auditoriya təcrübəsində vəziyyəti təhlil etmək.

**Tədqiqat metodları**. Araşdırmalar zamanı aşağıdakı tədqiqat metodlarından istifadə edilmişdir: nəzəri təhlil və tərkib, söhbət, müşahidə, müsahibə, induksiya və deduksiya, pedaqoji eksperiment, empirik metod və riyazi statistik metod.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Ali təhsil müəssisələrində ingilis dilinin tədrisi prosesində tələbələrin müstəqil işlərinin təşkilinin elmi-pedaqoji təhlili ilə bağlı aşağıdakı müddəalar müdafiəyə təqdim olunur. Ali təhsil müəssisələrində:

1) ingilis dilinin tədrisi prosesində tələbələrin müstəqil işlərinin təşkilində fərdlərin psixoloji durumu ön plana çəkilərək xüsusi tədris sisteminin qurulması zəruridir;

2) ingilis dilinin tədrisi prosesində tələbələrin müstəqil işlərinin təşkili zamanı metodoloji aspektlərin müəyyən edilməsi vacibdir;

3) ingilis dili tədrisinin təşkilində problemli məqamların aradan qaldırılması böyük əhəmiyyət daşıyır. Tədrisin keyfiyyət dərəcəsinə bilavasitə təsir edən tədris-metodik vəsaitlərin mükəmməl formada işlənib hazırlanması müşahidə və sorğulara əsaslanaraq formalaşır;

4) tələbələrin müstəqil işlərinin təşkilində müasir və Avropa standartlarına cavab verən metod və üsulların sistemləşdirilərək, xüsusi tapşırıq qovluqlarının hazırlanması zərurətə çevrilir;

5) Tədrisin keyfiyyətinin yoxlanılması və tədris zamanı tətbiq olunan metod və üsulların nəticə dəyərini yoxlamaq məqsədilə qiymətləndirmə meyarları sisteminin qurulması əsas məqamlardandır.

**Tədqiqatın elmi yeniliyi.** Ali təhsil müəssisələrində ingilis dilinin tədrisi prosesində tələbələrin müstəqil işlərinin rolu, onların düzgün təşkili yolları və üsulları müəyyənləşdirilmiş, yeni metodik model və tapşırıqlar sistemi işlənib hazırlanmışdır.

**Tədqiqatın nəzəri əhəmiyyəti** ilk növbədə "müstəqil iş" və "özünütənzimləmə" terminlərinin hansı nəzəri oppozisiyada durduğunun, onların bir-biri ilə nə dərəcədə eynilik və ya müxtəliflik təşkil etdiyinin nəzəri izahı baxımından dəyərləndirilir. Eynilə bu ziddiyyətlər zəncirində və xüsusilə də ali məktəb kontekstində tələbələrin müstəqil işlərinin yerinin və rolunun müəyyənləşdirilməsinin əhəmiyyəti əsaslandırılır.

**Tədqiqatın praktik əhəmiyyəti** ondan ibarətdir ki, təklif edilən nəzəri müddəalardan və eksperimental tədris materiallarından, ali təhsil müəssisələrində ingilis dilinin tədrisi prosesində tələbələrin müstəqil işlərinin təşkili üçün təklif olunan modellərdən xarici dillərin tədrisi prosesində, mühazirə və seminar məşğələlərində, müxtəlif metodik vəsaitlərin hazırlanmasında faydalanmaq mümkündür.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işinin əsas müddəaları və nəticələri "Xarici dillərin tədrisinin aktual problemləri" mövzusunda I, II, III və IV respublika elmi konfranslarında, doktorantların və gənc tədqiqatçıların XIV və XV respublika elmi konfranslarında, "Mədəniyyətlərarası dialoq: linqvistik, pedaqoji və ədəbi aspektlər"

adlı beynəlxalq elmi konfransda məruzələr şəklində səslənmişdir. Tədqiqatın konkret nəticələri ölkəmizdə və xaricdə çap olunmuş 31 elmi məqalədə öz ifadəsini tapıb.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilat.** Dissertasiya Azərbaycan Dillər Universitetinin Təhsil-1 fakültəsinin nəzdində Xarici dillərin tədrisi metodikası kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, 4 fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısı və əlavələrdən ibarətdir. Dissertasiya işinin giriş hissəsi 5 səhifə (8 707 işarə), I fəsil 45 səhifə (86 338 işarə), II fəsil 50 səhifə (92 235 işarə), III fəsil 54 səhifə (101 217 işarə), IV fəsil 63 səhifə (115 778 işarə), nəticə hissəsi 8 səhifə (13 422 işarə) olmaqla, ümumi həcmi 417 659 işarədir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi qeyd edilir, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, tədqiqat metodları, müdafiəyə çıxarılan əsas müddəalar müəyyənləşdirilir, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, aprobasiyası, quruluşu haqqında məlumat verilir.

Dissertasiyanın I fəsli **"Ali təhsil müəssisələrində ingilis dilinin tədrisi prosesində tələbələrin müstəqil işlərinin təşkilinin elmi-nəzəri əsasları"** adlanır. Bu fəsil 3 paraqrafdan ibarətdir. Fəslin paraqraflarında ali təhsil müəssisələrində ingilis dilinin tədrisi prosesində tələbələrin müstəqil işlərinin təşkili üç istiqamətdə – metodoloji, didaktik və psixoloji əsaslar nəzərə alınmaqla araşdırılmışdır.

İngilis dilinin öyrənməsi prosesində tələbələrin müstəqil işinin təşkili problemi gündən-günə aktuallaşmaqdadır. Aktuallığı zəruri edən məsələ bir sıra amillərlə əlaqədardır. Belə ki, qloballaşan dünyada dövlətlər və xalqlararası elmi, siyası, iqtisadı və mədəni əlaqələri təkmilləşdirmək və inkişaf etdirməkdədir. Bu əlaqələrin sıx yaranması üçün beynəlmiləl dil olan ingilis dilindən əsas əlaqə qurmaq aləti kimi istifadə olunur.

Tələblərin müstəqil işlərinin tədqiq edilməsinə dair B.P.Yesipov[2], İ.Y.Lerner[3], P.İ.Pidkasistı[4], Y.Y.Qolant[5], M.İ.Mahmudov[6] və b. mütəxəssislər fundamental əsərlər yazmışlar. Onların fundamental məqalə, dərslik və kitablarında tələbələrin müstəqil işlərinin müxtəlif aspektləri: mahiyyəti, forma və növləri, müstəqillik və fəaliyyət arasındakı əlaqə, tələbələrin idrak müstəqilliyi mənbələri və s. öz əksini tapmışdır.

Belə ki, T.İ.Şamova tələbələrin müstəqil işlərini tələbələrin idrak fəaliyyətinin təşkili forması hesab edərək müstəqil işin beş səciyyəvi cəhətini müəyyənləşdirmişdir. Onlar aşağıdakılardır*: "1) məqsədin olması; 2) konkret tapşırıq; 3) işin nəticəsinin aydın ifadə forması; 4) nəticənin yoxlanılması formasının tərifi; 5) tələbələr tərəfindən işlərin məcburi şəkildə yerinə yetirilməsi"*[7].

Yuxarıda göstərilən təriflərin təhlili "tələbələrin müstəqil iş" termini üçün konkret və aydın bir tərifin olmadığı qənaətinə gətirib çıxarır. Buna baxmayaraq, tələbələr tərəfindən yerinə yetirilən müstəqil işlərə müxtəlif təriflər verilsə də, bu təriflərin hamısını bir fikir ətrafında toplamaq mümkündür.

Beləliklə, müstəqil iş – təlim prosesi zamanı müəllimin metodik və ya elmi rəhbərliyi və ya nəzarəti ilə reallaşan, planlaşdırılmış, fərdi və ya kollektiv elmi və ya tədris işidir. Belə hesab etmək olar ki, bilikləri artırmağın ən əlverişli və sübut olunmuş yollarından biri tələbələrin müstəqil işi auditoriyada və auditoriyadan kənar işləmə-

---

[2] Есипов, Б.П. Самостоятельная работа учащихся на уроках / Б.П.Есипов. – Москва: Учпедгиз, – 1961. – 139 с.

[3] Лернер, И.Я. Концепция базового содержания образования / И.Я.Лернер. – Москва: – 1991.

[4] Одинокая, М.А. Применение технологии интерактивного обучения для организации самостоятельной работы студентов // Вопросы методики преподавания в вузе. Санкт-Петербургский государственный политехнический университет, – 2013. №3(17), – с.228-235.

[5] Головко, Л. Роль самостояателной работы студентов в процесе подготовки специалистов агропромыслового комплекса // Освита и управления. – 1998. №2, с.100-103.

[6] Mahmudova, R. Ali məktəbdə tələbə müstəqil işinin imkanları və yolları / R.Mahmudova. – Bakı: Çaşıoğlu, – 2005. – 135 s.

[7] https://infourok.ru/dissertaciya-po-teme-formirovanie-navikov-samostoyatelnoy-raboti-na-urokah-angliyskogo-yazika-v-sredney-shkole-3156596.html

sidir. Müasir dövrdə dərslərin təşkili müəllim mərkəzli təlimdən tələbə mərkəzli (tələbəyönlü) bir tədrisə yönəldilir. Ali təhsil müəssisələrində tələbələrin peşə hazırlığı səviyyəsinə qoyulan tələblərin, hədəflərin və təhsilin məzmununun dəyişdirilməsi ilk növbədə təhsilin keyfiyyəti problemini önə çəkir.

Prof. B.A.Əhmədov bu xüsusda qeyd edirdi ki: *"İstər ümumtəhsil məktəblərində, istərsə də ali təhsil müəssisələrində öyrədənlərin, tərbiyə edənlərin vəzifəsi, təkcə hazır bilikləri verməkdən ibarət deyil, həm də biliyi müstəqil qazanmaq yollarını öyrətməkdən ibarətdir".*[8]

Müstəqil iş müxtəlif təşkilati formalarda (fərdi, cüt, kiçik qruplar və bütün qrup) aparıla bilər. Bu formaların hər biri tələbələrin təşkilati, məlumatlandırma, idrak və ünsiyyət bacarıqlarını yaratmaq və inkişaf etdirmək üçün hazırlanmışdır ki, bunların hamısı təlim metodikasının inkişafı ilə birlikdə dilin mənimsənilməsində irəliləyişləri təmin edəcəkdir. Təşkilati forma və tətbiq yerinin seçimi materialın xarakteri, inkişaf etdirilən fəaliyyət növü, tələbələrin yaş və psixoloji xüsusiyyətləri, habelə xarici dil otağının tələb olunan texniki vasitələrlə təchiz olunma dərəcəsi ilə müəyyənləşir. İ.A.Zimnyaya ingilis dili dərsində müstəqil işin təşkilinin dörd mərhələdən ibarət olduğunu vurğulayır: *"1. Hazırlıq işləri, müəllim tələbələrə müstəqil işlərin məqsədi barədə məlumat verdikdə, onun daha uğurlu həyata keçirilməsi imkanlarını ortaya qoyur, lazım gəldikdə, hər kəsi onunla məsləhətləşməyə və əlavə ədəbiyyatdan faydalanmağa dəvət edir. 2. Tələbələrin dərsdəki müstəqil iş prosesi. Tələbələri yalnız zehni işlərlə məşğul olmağa və onları müəyyən tələbləri yerinə yetirməyə həvəsləndirmək kifayət deyil, onların həm də zehni fəaliyyətə marağının zəruri inkişafına, reproduktivdən daha mürəkkəb işə tədricən keçilməsinə, bacarıqlardan, arayış kitabçalarından, lüğətlərdən və nəhayət, təxəyyüllərindən istifadə etmələrinə nail olmaq lazımdır.3. Xülasə-ümumiləşdirmə: müstəqil işin auditoriya işlərinə, ev tapşırıqlarının daha az və ya daha mürəkkəb variantına daxil edilməsi. 4. Yekun: tələbələrin öz-özünə təhsil sistemi üçün yaradıcı vəzifələr seçməsi".*[9]

---

[8] Əhmədov, B. Elmi-texniki inqilab və müəllim hazırlığı // "Azərbaycan məktəbi" jurnalı. – Bakı: – 1978. №6, – s.19-26.
[9] Зимняя, И.А. Ключевые компетентности как результативно-целевая основа компетентностного подхода в образовании // Высшее образование сегодня. – 2003. №5, – с.34-42.

İngilis dilini öyrənmə prosesində təhsilalanların müstəqil iş bacarıq və vərdişlərinin formalaşması texnologiyası müəllimlə tələbənin qarşılıqlı fəaliyyəti olub, danışıq fəaliyyətinin (dinləmə, oxumaq) reseptiv tiplərinin bacarıq və qabiliyyətlərinin formalaşmasına yönəldilmişdir.

Metodik ədəbiyyatda tələbələrin müstəqil işlərinin artan əhəmiyyətinin aşağıdakı əsas səbəbləri aşkara çıxarılmışdır:[10]

- elmi məlumatların sürətli artması;
- təhsil məlumatlarını ən yüksək səviyyədə təmin etmək;
- müasir mütəxəssisin şəxsiyyət keyfiyyətlərinin formalaşması və inkişafı: müstəqillik, fəaliyyət, inandırma və s.

Ali təhsil müəssisələrində xarici dilin tədrisi prosesində tələbələrin müstəqil işlərinin təşkilinin metodoloji əsaslarını tədqiq edərkən elmi nəzəri ədəbiyyatlarda bu xüsusda göstərilən aşağıdakı mülahizələrin doğru olması qənaətinə gəlirik:

-ali məktəbin tədris planına daxil edilmiş auditoriya və auditoriyadankənar müstəqil işlər tələbələrin idrak fəallığını artırır, yaradıcılıq qabiliyyətlərini inkişaf etdirir, onlarda tədqiqatçılıq səriştəsi formalaşdırır, peşə-ixtisas hazırlığına imkan verir. Müstəqil iş tələbəni özünütəhsil, özünütərbiyə və özünütəkmilləşdirmə fəaliyyətinə yönəldir, davamlı, "ömürboyu" təhsilə aparan yol kimi hesab edilir.

-tələbə müstəqil işləri məqsədyönlü, sistemli, mütəmadi, ardıcıl və müqayisəli təşkil olunduğu təqdirdə səmərəli və məhsuldar yerinə yetirir.

-ali məktəbdə müstəqil işin müxtəlif formaları varislik əsasında vəhdət təşkil etdikdə daha uğurlu olur.

[10] Бунтова, Е.В. Методические требования к содержанию и организации самостоятельной работы студентов при обучении теории вероятностей и математической статистики // Актуальные проблемы развития высшего и среднего образования на современном этапе: мат-лы V науч.-практ. конф. ученых и педагогов-практиков. – Самара: Изд-во Самарского научного центра РАН. – 2008. – с.181-185; Ибрагимова, Е.М. Методические рекомендации преподавателям по формированию исследовательской компетенции студентов в процессе проблемного обучения // Методическое пособие для преподавателей. – Казань: Изд-во Казан. ун-та, – 2016. – 52 с.

-tələbə müstəqil işinin təşkili zamanı keyfiyyəti təmin etmək məqsədilə müvafiq fizioloji, tibbi, sosial, pedaqoji, psixoloji, didaktik, metodik qaydaları yerinə yetirməlidir.

-tələbə müstəqil işinin səmərəli təşkili və keyfiyyətli icrası ali təhsil müəssisəsinin professor-müəllim heyətindən, icraçı rəhbərdən, onun diaqnozlaşdırıcı, proqnozlaşdırıcı fəaliyyətindən, təhsilalanı müvafiq istiqamətə yönəltmək məharətindən, ustalığından öyrənənlə əməkdaşlıq etmək qabiliyyətindən çox asılıdır, ali məktəbdə təlim-tərbiyə fəaliyyətində olduğu kimi, tələbə müstəqil işinin təşkilində də əsas "yük" istiqamətçi – müəllimin üzərinə düşür. İstiqamətçi – müəllim tələbəyə hazır bilik "vermir", biliyi müstəqil surətdə əldə etməyi öyrədir, gələcək davamçılarında elmə, tədqiqatçılığa, axtarıcılığa həvəs və meyl yaradır, elmdə təsdiqini tapmış gerçəklikləri araşdırmağı bacaran gənclər yetişdirir, yalnız peşəkar mütəxəssis deyil, yaradıcı ixtisasçı formalaşdırır və bu mürəkkəb quruluşda təlim-tərbiyənin, ələlxüsus da müstəqil işin lazımi imkanlarından, növlərindən, metod və üsullarından və formalarından istifadə etməyin öhdəsindən gəlir.

Müstəqil işinin təşkilinin nəzəri əsasları xarici dilin əsas səviyyəsini mənimsəyərkən tələbələrin aşağıdakı tələbləri nəzərə almasını tələbata çevirir:

1) uğurlu sosiallaşmaq və müasir multikultural dünyada mədəniyyətlərarası ünsiyyəti həyata keçirmək üçün kommunikativ xarici dil səriştəsinin formalaşdıırılması;

2) ölkənin/ölkələrin sosial-mədəni xüsusiyyətləri haqqında biliklərə yiyələnmək, bu xüsusiyyətlərə adekvat olan verbal və qeyri-verbal davranışı qurmaq bacarığı, doğma ölkənin və hədəf dilin ölkəsinin/ölkələrinin mədəniyyətlərində ümumi və fərqli olanı ayırd etmək bacarığı;

3) xarici dildə danışan, habelə öyrənilən dildən ünsiyyət vasitəsi kimi faydalanan ölkələrin nümayəndələri ilə həm şifahi, həm də yazılı şəkildə ünsiyyət qurmağa imkan verən xarici dil biliyinin meyar həddinə yüksəlməsi;

4) təhsil və özünütəhsil məqsədlərilə xarici mənbələrdən məlumat almaq üçün xarici dildən faydalanmaq bacarığının formalaşması son dərəcə zəruridir.

V.V.Davıdovun qənaətincə: *"Müstəqil iş müəllim və tələbənin qarşılıqlı fəaliyyətlərinin xüsusiyyətlərini əks etdirən mürəkkəb didaktik təhsildir. Müəllimə münasibətdə bu iş həm tədris metodu, həm də tədris vasitəsidir, qarşılıqlı əlaqəli fəaliyyət formasıdır və öyrənənə münasibətdə – tədris metodu, idrak fəaliyyətinin metodu, tədris və idraki fəaliyyətin formasıdır"*[11].

Didaktikada müstəqillik həm də vacib şəxsi keyfiyyət və özünütəşkiletmə sistemi kimi qəbul edilir. Təhsil prosesində istifadə olunan bütün müstəqil iş növləri müxtəlif meyarlara görə təsnif edilə bilər: didaktik məqsədə görə, tələbələrin təhsil fəaliyyətinin xarakterinə, məzmununa görə, tələbələrin müstəqillik dərəcəsinə və yaradıcılıq elementinə görə və s.

Didaktik məqsəd üzərində bütün müstəqil iş növləri beş qrupa bölünə bilər:

-yeni biliklərə yiyələnmək, müstəqil bilik əldə etmək qabiliyyətinə sahiblənmək;

-biliklərin möhkəmləndirilməsi və aydınlaşdırılması;

-təhsil və praktik problemlərin həllində bilikləri tətbiq etmək bacarıqlarının inkişafı;

-toplanmış informasiyaların təhlilini aparmaq və summativləşdirmək (sistemləşdirmık);

-praktik xarakterli bacarıq və bacarıqların formalaşdırılması;

-yaradıcı xarakterin formalaşdırılması, bilikləri mürəkkəb bir vəziyyətdə tətbiq etmək bacarığı.

Müstəqil iş sistemi didaktikanın əsas prinsiplərini və hər şeydən əvvəl əlçatanlıq və sistemlilik prinsiplərini, nəzəriyyə ilə praktikanı, şüurlu və yaradıcı fəaliyyətlə əlaqəni və yüksək elmi səviyyədə tədris prinsipini təmin etməlidir.

L.S.Piçkovanın [12] ingilis dilinin tədrisi metodikası əsərində tələbələrin müstəqil işləri çətinlik dərəcəsinə görə açılmayıb.

---

[11] Гузанов, Б.Н. Организация самостоятельной работы студентов в условиях реализации многоуровневой модели обучения. Монография / Б.Н.Гузанов, Н.В.Морозова. – Екатеринбург, РГППУ, – 2014.

[12] Пичкова, Л.С. Организация самостоятельной работы студентов как фактор формирования профессионально значимых компетенций // Пути повышения конкурентоспособности экономики России в условиях глобализации,

Bu günə qədər tələbələrin tədrisdə müstəqil iş problemlərini tədqiq edən D.E.Frenki, V.Q.Kisil, İ.V.Perlova, Y.N.Zaitseva, Y.V.Filimonova, T.D.Reçkina və b. müstəqil fəaliyyət prosesinin öyrənilməsində iki əsas xətti müəyyənləşdirmişlər: [13]

1) dərs sistemində müstəqil işin təşkili vasitələrinin eksperimental öyrənilməsinin didaktik-metodoloji komponenti;

2) təhsil prosesində müstəqil fəaliyyət mexanizminin öyrənilməsi daxil olmaqla psixoloji və didaktik komponenti.

Bu iki xəttin hər biri vacibdir, lakin birinci komponent, daha dəqiq vurğulasa, didaktik-metodoloji komponent daha vacibdir.

Prof. N.M.Kazımov[14] təlimin on üç prinsipini sistemləşdirmişdir:

-təlimin həyatla əlaqələndirilməsi prinsipi;
-təlim üçün münasib şəraitin yaradılması prinsipi;
-təlimdə fərdi xüsusiyyətlərin nəzərə alınması və müvafiqlik prinsipi;
-təlimdə əməkdaşlıq prinsipi;
-təlimdə düzünə və əksinə əlaqənin birliyi prinsipi;
-təlimdə şüurluluq və fəallıq prinsipi;
-təlimdə elmilik prinsipi;
-təlimin təhsilverici prinsipi;
-təlimin tərbiyələndirici prinsipi;
-təlimin inkişafetdirici prinsipi;
-təlimin anlayışa xidmət etməsi prinsipi;
-müxtəlif üsullardan istifadə prinsipi;
-təlimdə bilik və bacarıqların möhkəmləndirilməsi prinsipi.

---

Материалы конференции. МГИМО(У)МИД РФ. – Москва: МГИМО-Университет, – 2008.

[13] http://www.dslib.net/obw-pedagogika/multimedia-kak-sredstvo-inten sifi- kacii-samostojatelnoj-raboty-studentov-v.html; Срода, Р.Б. Воспитания активностей и самостоятельности учащихся в / Р.Б.Срода. – Москва: Изд-во АПН РСФСР, – 1956. – с.7; Пассов, Е.И. Концепция коммуникативного обучения / Е.И.Пассов, В.Б.Царьков. – Москва: – 1993; Макарова, М.П., Косырев В.П. Научно-методическое обеспечение организации подготовки бакалавров на компетентностной основе // Известия Самарской государственной сельскохозяйственной академии. – 2013. №2, – с.111-115.

[14] Kazımov, N.M. Ali məktəb pedaqogikası / N.M.Kazımov. – Bakı: – 2006. – 434 s.

N.M.Kazımovdan fərqli olaraq, prof. A.N.Abbasov məsələyə daha lakonik yanaşaraq təlimin 6 əsas prinsipini diqqət mərkəzinə gətirmişdir:[15]

-təlimin elmiliyi prinsipi;

-təlimin əyanilik prinsipi;

-şüurluluq və fəallıq prinsipi;

-təlimin sisrematiklik və ardıcıllıq prinsipi;

-biliklərin möhkəmləndirilməsi prinsipi;

-əlverişlilik və gücəmavafiqkuk prinsipi

Tələbələrin müstəqil işinin təşkili universitetdə pedaqoji fəaliyyətin bu istiqamətinin xüsusiyyətlərini əks etdirən didaktik prinsiplər nəzərə alınmaqla həyata keçirilir. Bu prinsiplər aşağıdakı kimi qruplaşdırılmışdır:

1. Tələbələrin tədris (auditoriyada yerinə yetirilən) və müstəqil (auditoriyadankənar) fəaliyyətlərinin vəhdəti prinsipi. Auditor məşğələlər tələb olunan minimum müstəqil işin bütün tələbələr tərəfindən yerinə yetirilməsini və tapşırıqların müəllimin nəzarəti altında aparılmasını təmin etməlidir. Müstəqil işin uğurla həyata keçirilməsi üçün müəllim, tapşırıqların müvəffəqiyyətlə icrasına kömək göstərən və tələbələrin müstəqilliyini inkişaf etdirməyə yönəlmiş təlimat və alqoritmlər hazırlayır.

2. Tələbələrin idrak qabiliyyətlərini və maraqlarını nəzərə almağa imkan verən fərdiləşdirmə və fərqləndirmə prinsipi. Bu prinsipin həyata keçməsi müxtəlif dərəcəli müstəqil işlərin yerinə yetirilməsini tələb edir. Bu onunla əlaqədardır ki, tələbələrin intellekt səviyyələri müxtəlifdir. Müxtəlif səviyyəli tapşırıqlara ali peşə təhsili standartının tələblərini özündə birləşdirən məcburi hissə daxil olunmalıdır. Öz tapşırıqlarının həllini müvəffəqiyyətlə yerinə yetirən tələbələrə daha mürəkkəb fərdi tapşırıqlar verilə bilər, məsələn, onlara elmi-tədqiqat işlərində iştirak etmək, layihə üzərində işləmək, nisbətən zəif tələbələrə kömək göstərmək təklif edilə bilər.

3. Tələbələrin təhsil və idrak fəaliyyətlərinin peşə və pedaqoji fəaliyyətlərinə ötürülməsinə töhfə verən peşə istiqaməti prinsipi. Peşəkar və pedaqojiyönlü müəllimin fərdi keyfiyyətləri ilə səciyyə-

[15] Abbasov, A.N. Pedaqogika nəzəriyyəsi və tarixi / A.N.Abbasov, L.A.Məmmədli, İ.B.Əmirəliyeva. – Bakı: Mütərcim, – 2022. – s.75-85.

lənir, pedaqoji fəaliyyətə, nəzəri biliklərə maraq əsasında formalaşır və inkişaf etdirilir, ali məktəbdə tədris praktikası zamanı gələcək müəllimlərin qazandığı öz pedaqoji təcrübəsi ilə möhkəmlənir. Təhsilalanların peşə marağını artırmağın yol və vasitələrindən biri pedaqoji problemləri yüksək bacarıq səviyyəsində həll etmək, tədris və yaradıcılıq tapşırıqlarını tam yerinə yetirmək, məruzə hazırlamaq, esse yazmaq, problemli və situativ vəzifələrin açıqlanması və həlli, tələbələrin praktikyönlü sosial-pedaqoji layihələr üzərində iş aparmalarıdır.

4. Tələbələrin şüurluluq və yaradıcı fəaliyyət prinsipi. Təhsilalanların müstəqil işlərinin təşkilində bu prinsipin həyata keçirilməsi onların bilikləri şüurlu şəkildə mənimsəməsini, eyni zamanda zehni fəaliyyət metodlarını, fəal idrak fəaliyyəti prosesində müstəqil iş metodlarının tətbiqini tələbata çevirir.

5. Müstəqil işlərin yerinə yetirilməsinə verilən vaxtı nəzərə alaraq tapşırıqların mümkün çətinlik prinsipi. Bu prinsip tapşırıqların məzmununun və müstəqil öyrənilən materialın həcminin tələbələrin intellektual inkişafı səviyyəsinə, əvvəlcədən hazırlıq nəticələrinə uyğunluğunu tələb edir.

M.İ.Moroya görə: *"...müstəqil iş tələbələrin elə şüurlu fəaliyyət növüdür ki, bu zaman tələbələr qarşılarına qoyulmuş məqsədə çatmaq üçün heç kimin köməyi olmadan çətinlikləri dəf edərək fəaliyyət göstərirlər".* [16]

E.İ.Uint müstəqil işi tələbələrin tədris-tərbiyə prosesinin fərdiləşməsinə yönəlmiş tədris fəaliyyət forması hesab edir[17].

Müstəqil işin təşkili, idarə olunması hər müəllimin çətin, məsuliyyətli və sistemli səkildə təşkil edəcəyi bir işdir. Fəaliyyət və müstəqilliyi isə tərbiyəsini tələbələrin təhsilinin ayrılmaz hissəsi hesab etmək lazımdır. Müstəqil iş tələbələr tərəfindən dərin və güclü biliklərə yiyələnmə, onların şəxsiyyət xarakteri kimi fəaliyyət və müstəqilliyini formalaşdırmaq və zehni qabiliyyətlərini inkişaf etdirmək vasitəsidir.

S.S.Əmirova[18] müstəqil işi sosial və şəxsi əhəmiyyətli vəzifələrin həllinə yönəlmiş fəaliyyətlərdə intellektual, emosional və

---

[16] https://www.dissercat.com/content/stimulirovanie-samostoyatelnoi-ucheb- noi-deyatelnosti-studentov-pedagogicheskogo-vuza-na-prim

[17] Унт, Н.Э. Индивидуализация и дифференциация обучения / Н.Э.Унт. – Москва: – 2003.

mənəvi-könüllü xarakter əlamətlərini inkişaf etdirmək üçün tələbənin yerinə yetirdiyi şüurlu işi kimi nəzərdən keçirir.

Başqa bir tədqiqatçı müəllif qrupu N.G.Dayri, R.G.Lemberg[19] tələbələrin idrak fəaliyyətlərindən asılı olan müstəqil işlərinin daxili əlamətlərini aşkara çıxarmağa çalışmışlar.

V.N.Dontsov[20] müstəqil işi özünütəşkil fəaliyyətini tələbənin özünə yönəldilmiş və xüsusi olaraq həyata keçirilən təşkilati fəaliyyət növü kimi hesab edir.

M.A.Danilovun nöqteyi-nəzərincə, tələbələrin müstəqil işlərinin əsas meyarı idrak, problemli tapşırıqların həllidir. Pedaqoq hesab edir ki: *"Bu, tələbələri düşüncə prosesinin başlanğıc nöqtəsi kimi fəaliyyət göstərən müstəqil işə təhrik edir".*[21] Müstəqil iş üçün tətbiqi hazır reseptlər və şablonlara uyğun hərəkətlərə imkan verməyən, lakin yeni bir vəziyyətdə biliyin tətbiqini tələb edən tapşırıqlar təklif olunur Yalnız bu vəziyyətdə müstəqil iş tələbələrin təşəbbüskarlıq və idrak qabiliyyətlərinin formalaşmasına kömək göstərir.

R.L.Hüseynzadənin qənaətincə: *"Psixologiyadan məlumdur ki, insan bilik üzərində nə qədər hərtərəfli işləsə, ona müxtəlif cəhətlərdən yanaşsa, o bilik daha yaxşı və daha möhkəm mənimsənilir. Çünki tələbə material üzərində müstəqil işləyərkən onu hərtərəfli təhlil edir, şüurunda eyni bir məsələyə bir neçə dəfə qayıtmalı olur, ümumiləşdirmələr aparır. Bütün bunlar da qazanılmış biliyin praktik əhəmiyyət kəsb etməsinə kömək göstərir".*[22]

Psixoloqlar təlim prosesini intensivləşdirməyin müxtəlif yollarını təklif edirlər. Xarici dil tədrisinin psixoloji prosesləri ilə məşğul olan görkəmli psixoloq V.A.Artemov bütün yolları iki əsas təhsil

---

18 https://www.taylorfrancis.com/chapters/edit/10.4324/9780429323423-5/sergei-rubinstein-founder-soviet-marxist-psychology-anton-yasnitsky

19 https://infourok.ru/dissertaciya-po-teme-formirovanie-navikov-samosto-yatelnoy-raboti-na-urokah-angliyskogo-yazika-v-sredney-shkole-3156596.html

20 https://www.dissercat.com/content/stimulirovanie-samostoyatelnoi-ucheb-noi-deyatelnosti-studentov-pedagogicheskogo-vuza-na-prim

21 Данилов, М.А. Самостоятельная работа учащихся / М.А.Данилов. Учеб. Пособие для студентов пед. In-ov для студентов пед. ин-тов, – Москва: Просвещение, – 1976. – 326 с.

22 Hüseynzadə, R. Təhsilin humanistləşdirilməsi və demokratikləşdirilməsi / R.Hüseynzadə. – Bakı: – 1997. – 211 s.

sahəsinə birləşdirir: tədris metodlarının təkmilləşdirilməsi; tələbələrin əqli qabiliyyətlərinin yaxşılaşdırılması, onlarda təlimin səmərəliliyini artıracaq keyfiyyətləri tapmaq.[23]

Psixologiya sahəsində aparılan tədqiqatlar onu sübuta yetirir ki: *"Xarici dilə yiyələnmək üçün ən əlverişli, eyni zamanda ən çox yayılmış metod – eşitmə, vizual, motor yaddaşından faydalanaraq əldə edilən şəkilləri özündə cəmləşdirən qarışıq yaddaşdır. Yaddaşın hər üç növü eyni dərəcədə yaxşı inkişaf edərsə, onda ingilis dili öyrənmək üçün mükəmməl bir şərait yaranar. Bu yaddaşa malik olan tələbə tamamilə müstəqil işləməyi və yaxşı nəticələr əldə etməyi bacarır, çünki nitq fəaliyyətinin bütün növlərini asanlıqla mənimsəyir. Ucadan oxuyur, ingilis dili öyrənir və qrammatikanı yaxşı bilir. Buna görə də, hər bir tələbənin hansı yaddaşa sahib olduğunu təlim qurmaq üçün əldə edilən nəticələr əsasında öyrənməkdən ötrü onu sınaqdan keçirmək lazımdır".*[24]

Müstəqil təlim fəaliyyətinin təşkili, həyata keçirilməsi özünütəhsil səriştəsinin inkişafına səbəb olan təhsil və idrak hərəkətlərinin məcmusunu müəyyənləşdirməyi zərurətə çevirir. Psixoloji nəzəriyyə baxımından istənilən fəaliyyətin strukturuna həvəsləndirici-motivasiya, istiqamətləndirmə-tədqiqat (analitik-sintetik), icra və nəzarət-qiymətləndirmə mərhələləri daxildir. Həvəsləndirici-motivasiya mərhələsi fəaliyyətin daxili strukturuna daxil olur, onu müəyyənləşdirir və istiqamətləndirir. Məzmun baxımından bu fəaliyyət səviyyəsi ehtiyac-motivasiya-hədəfdir modelindədir. Ənənəvi metodoloji ədəbiyyatda "xarici motivasiya" və onun tələbəyə təsirinə böyük əhəmiyyət verilir, özünümotivasiya isə, fərdin motivasiya sisteminin ən yüksək səviyyəsidir və xüsusi diqqətəlayiqdir, çünki onun metodoloji məqsədi imkan yaratmaqdır.

Dissertasiyanın II fəsli **"Ali təhsil müəssisələrində ingilis dilinin tədrisi prosesində tələbələrin müstəqil işlərinin təşkili baxımından mövcud vəziyyətin təhlili"** adlanır. Bu fəsildə problem baxımından ali təhsil müəssisələrində mövcud vəziyyətin, ali təhsil

---

[23] Ляудис, В.Я. Методика преподавания психологии / В.Я.Ляудис. – Москва: УРАО, – 2000.

[24] Həmzəyev, M.Ə. Pedaqoji psixologiya (pedaqoji institut tələbələri üçün) / M.Ə.Həmzəyev. – Bakı: – 1991. – 204 s.

müəssisələrində proqram və dərsliklərin və problemə dair müşahidə və sorğuların təhlili geniş və aydın formada aparılmışdır.

Dissertasiyada alman pedaqoqu və psixoloqu A.Disterveqin belə bir fikri irəli sürmüşdür: *"Pis müəllim həqiqəti təqdim edir, yaxşısı isə onu tapmağı öyrədir".*[25] Bu istiqamətdə auditor saatlar, yəni auditoriyadaxili tədrisin təşkili tələbələrin nəzəri hazırlığına, məntiqi nəticələrə gələ bilmək, ümumiləşdirmələr apara bilmək bacarığının formalaşmasına, müstəqil işin əhəmiyyətini başa düşməyə və onun icrasına meyillənməyə, ilkin mənbələrlə və ədəbiyyatla işləməyin məqsədini anlamağa və s. xüsusiyyətlərə yiyələnmələrinə kömək etmək məqsədi daşıyır.

Mühazirəçinin şəxsiyyət bütövlüyü, mənəvi əxlaqi saflığı, ixtisası üzrə yüksək elmi hazırlığı, humanizmi, xeyirxahlığı, ədaləti, obyektivliyi, prinsipiallığı, tələbələrlə işləmək həvəsi, alimlik dəyəri, natiqliyi mühüm təsiredici xüsusiyyətləri böyük əhəmiyyətə malikdir.

"Tələbələrin müstəqil işi müəllimin rəhbərliyi altında ümumi təhsil və peşə hazırlığına yönəlmiş təhsil və idrak fəaliyyətinin növlərindən biri kimi" anlayışın mahiyyətini Zhakebaeva son dərəcə geniş açır: *"Nöqteyi-nəzərimizcə, bir çox müəllimlər səhvə yol verir, müstəqil işi təhsil, tədqiqat və özünütərbiyə xarakterli müəyyən tapşırıqların yerinə yetirilməsi ilə məhdudlaşdırırlar".*

Tələbənin müstəqil işinin ən dolğun və mənalı konsepsiyasını M.G.Qarunov təhsil, istehsalat, tədqiqat və özünütərbiyə xarakterli müxtəlif vəzifələri yerinə yetirmək, peşə bilikləri sistemini, idrak və peşə fəaliyyət üsullarını mənimsəmək vasitəsi kimi, yaradıcı fəaliyyətin bacarıq və bacarıqlarını inkişaf etdirmək kimi başa düşüldüyü qənaətindədir.[26]

Müstəqil iş kredit texnologiyası çərçivəsində əyani şöbədə ümumi intizam saatının 2/3-ni, distant şöbədə isə ümumi saatın 85 faizindən çoxunu təşkil edən peşəkar ustalıqdır. Tələbələrin müstəqil

---

[25] http://www.dslib.net/obw-pedagogika/multimedia-kak-sredstvo-intensi- fi- kacii-samostojatelnoj-raboty-studentov-v.html

[26] Галишникова, Е.М. Использование интерактивной Smart-доски в процессе обучения // Учитель. – 2007. №4, – с.8-10.

işinin iki növü vardır: tələbələrin faktiki müstəqil işi və müəllimin rəhbərliyi altında müstəqil iş.

Tələbələrin müstəqil işinə dərsdənkənar vaxtlarda cari dərslərə hazırlıq, müstəqil iş üçün təqdim edilmiş materialın öyrənilməsi, ev tapşırıqlarının yerinə yetirilməsi, layihələrin işlənməsi, xülasələrin, referatların, məruzələrin, esselərin, kurs işlərinin yazılması daxildir.

Tədqiqatın nəticələrinə görə, tələbələrin fərdi işlərdə qarşılaşdıqları linqvistik problemlər; tələbələrin uyğun ideyaları seçməkdə çətinlik çəkmələri; kifayət qədər linqvistik baza olmadığından fikirlərin məhdud olması və yazmaq motivasiyasının aşağı düşməsi; yazıya diqqətini cəmləməkdə çətinlik çəkməsi; dostlarının fikirlərini başa düşməkdə çətinlik çəkməsi və s. ola bilər.

Tələbələrin əksəriyyəti etiraf edir ki, onlarda müstəqil işi düzgün təşkil etmək bacarıqları yoxdur, ümumiyyətlə vaxtlarını necə keçirəcəklərini bilmirlər; tədris materialını dinləmək, oxumaq və qeydlər aparmağın yavaş tempindən şikayətlənirlər.

Tələbə müstəqil işi yerinə yetirməzdən əvvəl onun formatı ilə yaxından tanış olmalıdır. Sonrakı mərhələdə tələbə daha yazılı və şifahi dil bacarıqlarını artıq tanış olduğu müstəqil iş növünə tətbiq etməkdə çətinlik çəkməyəcəkdir.

Müstəqil işin əsas növlərinin təsnifatı aşağıdakı cədvəldə öz əksini tapmışdır.

**Cədvəl 2.2.1**

**Müstəqil işin əsas növlərinin təsnifatı**

| | Qiymətləndirilən müstəqil iş növünün adı | Qiymətləndirilən müstəqil iş növünün qısa xarakteristikası | Qiymətləndirilən müstəqil növünün proqramlarda təqdimatı |
|---|---|---|---|
| 1 | Referat | Tələbənin tədqiq etdiyi problemin mahiyyətinin nəzəri təhlilindən alınan nəticələrinin yazılı şəkildə qısa xülasəsi formasında təqdim etdiyi və müxtəlif və tələbənin öz nöqteyi-nəzərindən baxılan müstəqil işinin formasıdır. | Referatın mövzusu |

**Cədvəl 2.2.1-in ardı**

| | | | |
|---|---|---|---|
| 2 | Esse | Tələbənin qarşıya qoyulan problemin mahiyyətini bildirərək, fənnin anlayışlarından və analitik vasitələrindən faydalanaraq bu problemi təhlil edən, nəticə çıxaran, problem üzərində mövqeyini ümumiləşdirən yazı bacarıqlarını qiymətləndirməyə imkan yaradan bir vasitədir | Essenin mövzusu |
| 3 | Hesabat | Tələbənin tədris-praktik, tədris-tədqiqat və ya elmi mövzuların təqdimatı üzrə müəyyən bir qərarın nəticələrinin məhsulu olan ictimai çıxış | Hesabatın mövzusu |
| 4 | Yaradıcı tapşırıq | Qismən tənzimlənən qeyri-standart həlli olan vəzifə bacarıqların diaqnostikasına, müxtəlif sahələrdən biliklərin inteqrasiyasına imkan verən və öz nöqteyi-nəzərini ortaya qoya bilən tapşırıq növü. Bir qrup tələbə tərəfindən və ya fərdi icra edilə bilər. | Yaradıcı tapşırığın mövzusu |
| 5 | Lüğət | Terminlər lüğəti | Lüğətin tematikası |
| 6. | Fərdi və qrup şəklində yerinə yetirilən layihə | Təlim kompleksinin və tədqiqat tapşırıqlarının planlaşdırılması və həyata keçirilməsi nəticəsində alınan son məhsul. Tədqiqat bacarıqlarının, praktiki və yaradıcılıq bacarıqlarının analitik düşüncə formalarının səviyyəsini qiymətləndirməyə imkan verir Bir qrup tələbə tərəfindən və ya fərdi icra edilə bilər. | Layihənin mövzusu |

**Cədvəl 2.2.1-in ardı**

| | | | |
|---|---|---|---|
| 7. | Keys tapşırıq (kiz) | Tələbədən real peşəkaryönlü həlli düşünmək tələb olunan problemli vəziyyəti əks etdirən tapşırıq | Kiz (keys) tapşırığın həll olunması üçün təqdim olunan material |
| 8 | Portfolio | Tələbənin mövzu və ya modul daxilindəki problemlərin nəticələrini, məqsədlərini, prosesi əks etdirən məqsədyönlü seçilmiş işləri | Potfolionun strukturu |
| 9 | İnfoqrafika | İnformasiyanın, əlaqələrin, ədədi verilənlərin və biliyin qrafik təsviri | İnfoqrafikanın mövzusu |

Təhsil-1 və Təhsil-2 fakültələri üzrə Xarici dillərin tədrisi metodikası kafedrası müəllimlərinin tədris etdiyi seçmə fənlər üzrə fənn proqramlarının və dərsliklərin təhlili zamanı tələbələrin müstəqil iş formasının qiymətləndirilməsi yuxarıda göstərilən problemlər baxımından həyata keçirilirdi. Seçmə fənlərin tədrisi daha çox nəzəri əsaslı biliklərin üzərində qurulduğundan təhlil və qiymətləndirmə məruzə mövzularının açıqlanma dərəcəsi, elmi ədəbiyyatın həcmi, prinsipləri üzrə aparılmışdır. Mövzunun açıqlanma dərəcəsinə gəldikdə qeyd etmək istərdik ki, "xüsusi məqsədlər üçün ingilis dili və ünsiyyət" və "sosial danışığın tədrisi metodikası" fənnində istifadə olunan dərsliklərin bəzi fəsillərdində məsələn; məruzənin mövzusu tam açıqlanır, daha çox şərhlər verilir.

Tələbələrin müstəqil işinin təşkilinin hazırkı vəziyyətinin təhlili Azərbaycan Dillər Universitetinin Təhsil-1 fakültəsi nəzdində Xarici dillərin tədrisi metodikası kafedrasının bakalavriat səviyyəsi üçün təqdim olunan seçmə fənlərin proqram və dərslikləri üzrə aparılmışdır. Əvvəlcə, seçmə fənlərin məqsəd və vəzifələrinə nəzər yetirmək vacibdir. Təhsil-1 fakültəsi nəzdində Xarici dillərin tədrisi metodikası kafedrası üzrə tədris olunan seçmə fənlər bakalavriat səviyyəsinin III kursunda tədris edilmək üçün nəzərdə tutulmuşdur. Həmin fənlər aşağıdakılardır:

1. Ünsiyyət və sosial danışığın tədrisi metodikası (Teaching Conversation anad Social İnteraction).

2. İşgüzar ingilis dilinin tədrisi metodikası (Teaching Business English).

3. Xüsusi məqsədlər üçün ingilis dili (English For Specific Purposes).

Seçmə fənlərin hər biri 105 saatı əhatə edir və onların fənn proqramları, müvafiq dərslikləri mövcuddur. Qeyd olunan seçmə fənlərin proqramları hər bir fənnin məqsəd və vəzifələri, məzmunu, quruluşu peşə hazırlığında rolu və fənnin tədrisinə ayrılmış saatlar üzrə mövzu bölgüsü haqqında məlumatları ehtiva edir: Buna nümunə olaraq bir fənn haqqında qısa məlumat göstərilir.

Ünsiyyət və sosial danışığın tədrisi metodikası (Teaching Conversation and Social İnteraction) seçmə fənnin proqramında tələbələrdə şifahi nitqi inkişaf etdirmək, orijinal mətnləri aydınlaşdırmaq, müsahibi ilə sərbəst ünsiyyət yaratmaq qabiliyyəti aşılamaq, müstəqil şəkildə rəy və mülahizələr irəli sürmək kimi vərdişlərin inkişaf etdirilməsi nəzərdə tutulur. Mövzular ətrafında müzakirələr tələbələrin qrup şəklində və cütlükdə ünsiyyət qurmaq, rəy öyrənmək və fikirlərə münasibət bildirmək vərdişlərini inkişaf etdirmək məqsədini güdür. Proqramdakı bütün mövzular tələbələrə dil daşıyıcıları ilə sərbəst və dolğun ünsiyyət qurmağa xidmət egöstərir. Fənnin məzmunu aşağıdakı mövzuları əhatə edir:

1. Introduction. Asking questions that promote conversation.
2. Delivering honest positives
3. Listening so others will talk
4. Letting others know who you are
5. Starting conversations
6. Issuing invitations that are likely to be accepted
7. Hansdling criticism constructively
8. Conveying meaning by motion
9. Reducing anxiety in social situations
10. Organizing your efforts
11. Acquiring the skills for reading gestures
12. Materials for gesture-reading
13. Openess, defensiveness, evaluation, suspicion
14. Readiness, Cooperation
15. Frustration

16. Confidence, Nervousness, Self-control,
17. Boredom
18. Expectancy
19. Superior and Subordinate
20. Gestures without an audience: Telephoning
21. Social Gatherings
22. How to make someone feel like an old friend at once
23. How to make people want to start a conversation with you
24. How to never need to wander "Waht do I say next"
25. How to find out what they do (without even asking)
26. How to make them never forget you with a "Killer compliment"
27. How to sound more exciting on the phone. (Qeyd olunmuş mövzular vəsaiti əsasında hazırlanmış sillabusa əsasən göstərilmişdir).

Müstəqil işin təşkili ali peşə təhsilinin dövlət təhsil standartlarında göstərilən ümumi mədəni və peşə səlahiyyətlərinin formalaşdırılmasına yönəldilməlidir. Müstəqil iş sisteminin layihələndirilməsi, dəyərinin, həcminin, mürəkkəbliyinin və yaradıcı təbiətinin artırılması didaktik tələblərə uyğun aparılmalıdır.

A.G.Moliboq müstəqil işi təhsil prosesini idarəedən komponent hesab edir. O, müstəqil işin təşkilinin aşağıdakı prinsiplərini vurğulayır:

*"-bütün müstəqil tapşırıqların həcm və vaxt baxımından tənzimlənməsi;*

*-tələbələrin müstəqil işləməsi üçün şəraitin yaradlkması və bu işə rəhbərlik".* [27]

Moliboq müstəqil işi çoxlu elementlərdən ibarət müxtəlif aspektli fəaliyyət kimi başa düşür: mühazirə və dərslərə hazırlıq zamanı tədris materialını qavramaq üçün yaradıcı qavrayış, imtahanlar, testlər, kurs işlərinin və tezislərin yerinə yetirilməsində və s. ortaya qoyulan bacarıq.

Müstəqil işlərin, tədris prosesində öyrənmənin bütün mərhələlərini əhatə edən inteqral bir sistem kimi təşkil olunmasının və

---

[27] Молибог, А.Г. Вопросы научной организации педагогического труда в высшей школе / А.Г.Молибог. – Минск: Высшая школа, – 1975. – 288 с.

həyata keçirilməsinin hansı dərəcədə səmərəli olmasını tələbələr arasında aparılan sorğulara cavablar göstərmişdir.

2020-ci ilin payız-qış semetrində II-III kurs tələbələri ilə sorğu müstəqil işin təşkili sistemini aydınlaşdırmağa imkan verdi. Belə ki:

-tələbələrin 46%-i bildirdi ki, onlar müstəqil işlərini düzgün bilmirlər;

-respondentlərin 65%-i vaxtlarının səmərəli keçirilməsinə mane olan hallardan danışdı;

-sorğu iştirakçılarının 45% isə ümumiyyətlə vaxtı bölməyin qeyri-mümkünlüyünü diqqətə çatdırdılar;

Sorğu iştirakçılarının çoxunun fikrincə, tədris mətnlərinin səsli (ucadan) oxunması və müəyyən qeydlərin aparılması, tədris materialını dərketmə zaman itkisinə səbəb olur. Sorğunun nəticələri onu deməyə əsas verdi ki, aşağı kurs tələbələrində müstəqil işə psixoloji hazırlıq formalaşmayıb, onlar ümumi qaydaları və özünü təşkil etməyi bilmirlər, hərəkətləri (fəaliyyətləri) planlaşdırmağı və həyata keçirməyi bacarmırlar. Bu, o deməkdir ki, müstəqil işə hazırlığa birinci kursdan başlamaq lazımdır. Sorğunun nəticələrinin təhlili müstəqil işin təşkilinin təkmilləşdirilməsi yollarını müəyyənləşdirməyə imkan verir. I kurslarda tələbələrin müstəqil işlərinin təşkilinə istiqamətlənmiş dərslərin keçirilməsi məqsədəuyğundur.

Xarici dillərin tədrisi metodikası kafedrası üzrə fənlərdə tələbələrin mövcud müstəqil iş sistemi, sosial işin idarə olunması və özünüidarə elementlərini ehtiva etməyə istiqamətlənməlidir. İlk növbədə, söhbət aşağıdakı elementlərdən gedir: məqsəd qoyma, işin (müstəqil və ya müəllimin köməyi ilə) planlaşdırılması və tənzimlənməsi. Müstəqil işlərin gedişində cari və özünə nəzarət, işin aralıq və yekun nəticələri, qeyd olunan səhvlərin və qeyri-dəqiqliklərin aradan qaldırılması, habelə onların səbəblərinin müəyyən edilməsi və qarşısının alınması da vacibdir. Müstəqil işin təşkilinin məntiqi əsasına sadə iş formalarından daha mürəkkəb işlərə yüksəlmək mərhələsi daxil olmalıdır.

Aşağı kurslarda (II-III kurs) tələbələrin müstəqil işi ənənəvi təhsil formaları çərçivəsində əldə edilmiş bilik və bacarıqların genişlənməsinə və möhkəmlənməsinə yönəlib (məsələn, tədris və elmi ədəbiyyat üzrə qeydlərin aparılması, standart situasiyalı tapşırıqların

həlli). Yuxarı kurslarda tələbələr təkcə öyrənilən fənlər daxilində nəzəri biliklərə yiyələnməməlidirlər, həm də qazanılan biliklərdən peşəkar vəziyyətlərdə istifadə etməyi öyrənməlidirlər. III-IV kurslarda müstəqil iş tələbələrin peşəkar zəruri qarşılıqlı əlaqə bacarıqlarının formalaşdırılmasında yaradıcılıq fəaliyyətinin genişləndirilməsi, hərtərəfli reabilitasiya planının tərtib edilməsi, profilaktik tədbirlərin işlənib hazırlanması, habelə özlərinin elmi araşdırmalarının həyata keçirilməsi məqsədlərini daşıyır. Bu prinsiplərin səmərəli və məhsuldar yerinə yetirilməsi istiqamətində III kurs tələbələrinin növbəti anket sorğusu 2021-ci ilin payız-qış sessiyasında yerinə yetirilmişdir. Hazırlanan suallar III kursda tədris olunan seçmə fənlərin tədrisi zamanı müstəqil işin nə dərəcədə qənaətbəxş təşkil olunması problemini əhatə edirdi. Belə ki, III kursda tədris olunan, həm nəzəri, həm də praktik hissəni özündə birləşdirən "İşgüzar ingilis dilinin tədrisi metodikası" (Teaching Business English) seçmə fənninin "Market Leader İntermediate" dərsliyində təqdim olunan modulların tələbələrin gələcəkdə işgüzar sahədə uğurlu fəaliyyət göstərmələri üçün nə dərəcədə müstəqil işyönlü olduğu aydınlaşdırılmışdır. Məsələn, "Brands" modulunda verilən mətn və tapşırıqların təqdim olunmuş şərtləri: Sevimli brendlərdən bəzilərini sadalayın (List some of your favourite brands). Sonra suallara cavab verin (Then answer the questions). Ortaq sözləri mənalarına görə uyğunlaşdırın (Match these word partnerships to their meanings). Məqaləni oxuyun və suallara cavab verin (Read the article and answer the questions). Məqaləyə ən yaxşı xülasəni seçin (Choose the best summary of the article). "Yaradıcı təfəkkürün formalaşdırılması və müstəqil şifahi və yazılı fəaliyyətin yerinə yetirilməsi üçün kifayətdirmi" sorgusunu tələbələrin 73 faizi tam razı deyiləm, 20 faizi qismən razıyam, 7 faizi razıyam varianları ilə cavablandırmışdırlar. III kursda tədris olunan "Xüsusi məqsədlər üçün ingilis dili" seçmə fənnin tədrisi zamanı Dudley-Evans, Tony (2012). "Developments in English for Specific Purposes: multi-disciplinary approach" kitabının tətbiqi praktik məşğələdən daha şox interaktiv mühazirə dərs növünə istiqamətlənmişdir Tələbələrə "interaktiv mühazirənin rolunu və əhəmiyyətini nədə görürsünüz?" sualı verilmişdir. Bu suala tələbələrdən 65%-i "fənnin materialının ardıcıl şərh olunmasında" və "fənlə əlaqədar informasi-

yanın ötürülməsində", yalnız 35 faizi "tələbənin idrak fəaliyyətinin inkişafı və məntiqi təhlilinin möhkəmləndirilməsində", "qazanılan biliyin önəmliliyinin dərk edilməsində", "elmə yiyələnməkdə müstəqil formada tədqiqat apara bilmək imkanı və tədqiqat aparma yollarını mənimsəməkdə" cavablarını vermişlər.

Azərbaycan Dillər Universitetinin Xarici dillərin tədrisi metodikası kafedrası müəllimlərinin III kursda tədris etdikləri "Ünsiyyət və sosial danışığın tədrisi metodikası" (Teaching Conversation anad Social İnteraction) seçmə fənni ilə əlaqədar tələbələrin müstəqil işlərinin, ümumiyyətlə müstəqil fəaliyyətlərinin necə təşkil olunduğunu öyrənmək üçün tələbələrə anket sorğusu təqdim edilmidir.

Beləliklə, tədqiqatın ümumi məqsədi seçmə fənnin tədrisi zamanı müstəqil işin təşkili və tətbiqilə bağlı tələbə məmnunluğunu artırmaq məqsədilə mövcud problemlərin ortaya çıxarılmasından ibarət idi. Məlumatların toplanması həm kəmiyyət, həm də keyfiyyət elementlərinə malikdi.

Anket tələbələrin seçmə fənlərin tədrisindən məmnunluq səviyyəsini qiymətləndirmək və ona təsir edən amilləri araşdırmaq üçün hazırlanmışdır. Tələbə məmnuniyyəti səviyyəsindəki dəyişkənliyi aydınlıq gətirmək üçün (asılı dəyişən) mümkün izahedici amillər (müstəqil dəyişənlər) müvafiq ədəbiyyata istinadla müəyyən edilmiş və faktiki təlim vəziyyətinin əks olunması ilə tamamlanmışdır. Müəyyən edilmiş altı fərziyyə və ya mümkün səbəb amilləri aşağıdakılardır:

Fərziyyə 1: İngilis dili səviyyəsi (orta məktəb ingilis dili testinin nəticələri ilə ölçülür) aşağı olan tələbələr müstəqil işin üstünlüklərindən faydalanmağı daha çox istəyəcəklər

Fərziyyə 2: Tələbələrin ümumilikdə ingilis dilini nə qədər müsbət qiymətləndirirsə, müstəqil işə bir o müsbət cavab verəcəklər.

Fərziyyə 3: Texnologiyadan yaxşı fatdalanmağı bacaran tələbələr texnologiyaya əsaslanan müstəqil işdə iştirakdan çox məmnun qalacaqlar.

Fərziyyə 4: Mənbələrədən və resurslardan müvafiq məlumatları əldə etməyə qadir olan tələbələr müstəqil işi böyük həvəslə yerinə yetirəcəklər.

Fərziyyə 5: Öyrənmənin məqsədlərini müəyyənləşdirə, özünü i, yoldaşları ilə əməkdaşlıq etməyi bacaran tələbələr müstəqil işin öhdəsindən daha asanlıqla gələ biləcəklər

Fərziyyə 6: Ümumilikdə tələbələrin müstəqil işi nə dərəcədə faydalı, mümkün və səlahiyyətləndirici hesab edirlərsə müstəqil fəaliyyətlərindən məmnunluq səviyyəsi də o qədər yüksək olacaq.

Tələbələrin müstəqil işin təşkilinə münasibətini daha dərindən araşdırmaq üçün III kurs tələbələrilə seçilmiş yarım-strukturlaşdırılmış formatdan faydalanmaqla müsahibə aparılmışdır. Nümunə ölçüsü çox kiçik olsa da, cavablar sorğu anketi məlumatlarını müəyyən dərəcədə təsdiqlədi, çünki 43% tələbə zehni təqdimatları ən mühüm, 57% isə ictimai təqdimatları ən zəruri amil kimi qeyd etmişdir.

Müstəqil işin təşkilinin ümumi uğurunu qiymətləndirərkən, sorğudan əldə edilən məlumatlar göstərir ki, hətta ümumi istiqamətləndirmədə daha az müsbət olanlar arasında da əhəmiyyətli öyrənmə var və aydınlaşdı ki, tələbələr təcrübədən daha dəyərli bir şey öyrənəcəklərini gözləyirdilər. Məsələn, onlar məqsədlər qoymağı və dəqiqləşdirməyi, daha intizamlı olmağı, resursları haradan tapmaq və müvafiq olanları necə seçmək barədə daha çox məlumatlı olacaqlarını, daha "aktiv" öyrənənlərə çevrilərək müstəqil öyrənməyə doğru irəliləmək potensialını əldə edəcəklərini düşünürdülər. Ağlabatan nəticə o ola bilər ki, tələbələr Holec (1981) tərəfindən qeyd olunan "biliyin mənimsənilməsi" proseslərinin qismən bəzi sınaqlarından keçiblər. Müəllimin nəzarəti və qiymətləndirməsi ilə bütün bu proseslər həyata keçirilmişdir.

Tələbələrlə sorğular göstərdi ki:

a) onlar düzgün qaydada təşkil olunmuş müstəqil iş üçün zəruri bilik və bacarıqları inkişaf etdirməyə qadirdirlər;

b) fənn proqramları və dərsliklər tələbələrin müstəqil fəaliyyətlərindən məmnunluq səviyyəsini aydınlaşdırmağa kömək göstərən mühüm amildir;

c) informasiya-kommunikasiya texnologiyalarının təlimdə uğurlu tətbiqi müstəqil işin təşkilinə əsaslı təsir göstərən amildir;

ç) müəllimlərin müstəqil işin təşkilinə ciddi yanaşmalar uğurun qazanılmasına bir təkandır.

Müstəqil işin təşkil olunması keyfiyyətini yoxlamaq məqsədilə anketin sualları təqdim edilir:

1. Seçmə fənnin tədrisi zamanı müstəqil işin təşkili ilə bağlı ümumi təəssüratınız necədir?

Rəqəmlərdən birini qeyd edin:

Əla – Faydasız

o o o o o

1 2 3 4 5

2. Semestr imtahanlarında ingilis dilindən nəticəniz necə olub?

| əla | çox yaxşı | yaxşı | Orta | zəif | çox zəif |
|---|---|---|---|---|---|
| | | | | | |
| | | | | | |

3. Müstəqil işin intensiv olaraq təşkil olunmasına münasibətiniz.

Rəqəmlərdən birini qeyd edin:

Asan – Çətin

o o o o o

1 2 3 4 5

Faydalı – Faydasız

o o o o o

1 2 3 4 5

Maraqlı – Darıxdırıcı

4. Müstəqil iş zamanı başqaları ilə tez-tez əməkdaşlıq edirsinizmi? (məsələn, kömək istəmək, məsləhət vermək, məqamları müzakirə etmək, mesajlar göndərmək və s.

Yalnız BİR cavabı işarələyin:

| heç zaman | nadir hallarda | tez-tez | həmişə |
|---|---|---|---|
| | | | |
| | | | |

5. Müstəqil iş zamanı tez ruhdan düşürəm. Yalnız BİR cavabı işarələyin:

| Tam razıyam | Razıyam | Razı deyiləm | Qətiyyən razı deyiləm |
|---|---|---|---|
| | | | |
| | | | |

6. Seçmə fənlərin tədrisində müstəqil iş layihələri təhsilimin qalan hissəsi ilə heç bir əlaqəsi olmayan əlavə işdir. Yalnız BİR cavabı işarələyin: Tamamilə razıyam – Razıyam – Razılaşmıram – Qətiyyən razı deyiləm.

7. Müstəqil iş çox vaxt aparır.

Yalnız BİR cavabı işarələyin: Tamamilə razıyam – Razıyam – Razılaşmıram – Qətiyyən razı deyiləm Q11.

Hər ifadə üçün BİR cavabı işarələyin: Tamamilə razıyam – Razıyam – Razılaşmıram – Qətiyyən razı deyiləm

8. Müstəqil işin təşkili və tətbiqi üçün mövcud olan resursların sayı qənaətbəxş deyil.

Hər ifadə üçün BİR cavabı işarələyin: Tamamilə razıyam – Razıyam – Razılaşmıram – Qətiyyən razı deyiləm

9. İngilis dilinin güclü və zəif tərəflərimi bilirəm.

Hər ifadə üçün BİR cavabı işarələyin: Tamamilə razıyam – Razıyam – Razılaşmıram – Qətiyyən razı deyiləm

10. Dərslərdə təşkil olunan müstəqil işlərdə iştirak etməyi sevirəm və asanlıqla öhdəsindən gəlirəm.

Hər ifadə üçün BİR cavabı işarələyin: Tamamilə razıyam – Razıyam – Razılaşmıram – Qətiyyən razı deyiləm

Apardığımız təhlilləri nəzərə alaraq qeyd etmək lazımdır ki, tələbələrin müstəqil işlərinə nəzarət formaları öz rəngarəngliklərinə görə seçilir – onlar şifahi və ya yazılı, fərdi və ya qrup şəklində, ümumi və ya xüsusi (seçilmiş) ola bilər. Müstəqil işlərin qiymətləndirilməsi reytinq sisteminə əsasən həyata keçirilir. Burada əsas məqsəd təhsilin müxtəlif mərhələlərində tələbələrin müstəqil işlərini mümkün qədər obyektiv qiymətləndirməkdən, onların semestr ərzində ritmik işləməsini təmin etməkdən ibarətdir. Bu, eyni zamanda tələbələri öz reytinq dərəcələrini yaxşılaşdırmağa, onların idrak və yaradıcı fəallıqlarını artırmağa kömək göstərir.

Tələbələr aşağıdakı məqsədlərlə müstəqil işləyirlər:

-onların nəzəri biliklərinin və praktik bacarıqlarının sistemləşdirilməsi və möhkəmləndirilməsi;

-nəzəri biliklərin dərinləşməsi və genişlənməsi;

-tələbələrin idrak qabiliyyətlərinin və fəallığının inkişafı:

-tələbələrin yaradıcı təşəbbüsünün, müstəqilliyinin, məsuliyyət və təşkilatlanmasının inkişafı;

-tələbələrdə müstəqil düşüncə tərzinin, özünü inkişaf etdirmə, özünü təkmilləşdirmə və öz fikrini həyata keçirmək bacarığının formalaşması;

-tələbələrin tədqiqat bacarıqlarının inkişafı.

Müəllim tələbələrə müstəqilliklərini və fərdiliklərini göstərmək üçün nə qədər çox imkan verirsə, tələbələr öz işlərində aktiv, yenilikçi və yaradıcı metodlardan daha çox faydalanır, çətinlikləri aradan qaldırır, tələbələrin köhnə biliklərə və ya yenilərinə yiyələnmələri üçün problemli vəziyyətlər yaradır.

**Cədvəl 2.3.1**

**Xüsusi təlim fəaliyyətləri**

| Xüsusi təlim fəaliyyətləri | Hədəf istiqamətləri | Təlim fəaliyyətlərinin məzmunu |
|---|---|---|
| İdrak (koqnitiv) təlim fəaliyyətləri | Tədris materialının müstəqil şəkildə dərk edilməsini təmin edir. | -qavrayış (vizual, eşitmə, audiovizual, mətn, ekran)<br>-öyrənmə (oxuma) və anlama<br>-təkrar (əzbərləmək, yenidən yazmaq, vurğulamaq, qeyd etmək, təyin etmək)<br>-təkmilləşdirilmə (nümunələrin seçilməsi, müqayisə, fənlərarası rabitə əlaqələrinin qurulması, əlavə ədəbiyyatın istifadəsi, parafraziya. konseptual bir sxemin tərtib edilməsi) |
| Zehni təlim fəaliyyətləri | Tələbələrə tədris materialının şüurlu müstəqil qavranılmasına, öyrənilən hadisələrin mahiyyətinə öz-özünə nüfuz etməsinə, fəaliyyət göstərmələrinin qanun və qanunauyğunluqların müəyyənləşdirilməsinə, öz aralarında öyrənilən mövzuların məntiqi və əlaqələrinin qurulmasına öz töhfələrini verirlər. | -Təhlil<br>-Sintez<br>-Ümumiləşdirmə<br>-Mövzu üzrə qruplaşdırma<br>-Təsnifat<br>-Mücərrədləşdirmə<br>-Modelləşdirmə |

**Cədvəl 2.3.1-in ardı**

| | | |
|---|---|---|
| Təşkilati təlim fəaliyyətləri | öz məqsədlərini, planlarını, fəaliyyət metodlarını, müstəqil işi yerinə yetirmək üçün vaxt və səylərini tənzimləməyə xidmət edir; | Planlaşdırma (plan tərtib etmək, məzmunun qurulması, məqsəd qoyulması, məqsədin həyata keçirilməsi üçün məntiq;<br>Müşahidə (nailiyyətlərin qiymətləndirilməsi, özünü yoxlamaq üçün suallara cavablar, nəzəriyyənin praktikada tətbiqi, mövzuya dair tezislərin tərtib edilməsi, lazımi məlumatların toplanması, digər elmi mənbələrə istinad edilməsi, özünü stimullaşdırması; |
| Nəzarət-qiymətləndirmə təlim fəaliyyətləri | aparılmış qiymətləndirmə nəticəsində boşluqların aradan qaldırılmasına xidmət edir. | -müstəqil işin səmərəli təşkilini əks etdirir<br>-tənzimləmə (özünə nəzarət, özünüqiymətləndirmə, əlavə mənbələrdən istifadə, könüllü tənzimləmə, tapşırıqların müəyyən ardıcıllıqla verilməsi, yeni məqsədlərin qoyuluşu |

Beləliklə, aydınlaşdı ki, seçmə fənlərin tədrisi zamanı müstəqil işlərdə tələbələrin məmnun qalacaqları şəkildə iştirakı təlim mühitdən asılıdır.

Dissertasiya işinin III fəsli **“Ali təhsil müəssisələrində ingilis dilinin tədrisi prosesində tələbələrin müstəqil işlərinin təşkilinin səmərəli yolları”** adlanır. Bu fəsil 3 paraqrafdan ibarətdir. Fəsildə təlim fəaliyyəti zamanı tələbələrin müstəqil işlərinin təşkilində müasir metod və üsulların hazırlanmasının səmərəli yolları, təlim fəaliyyəti zamanı tələbələrin müstəqil işlərinin təşkilində motivasiyanın yaradılması, təlim fəaliyyəti zamanı tələbələrin müstəqil işlərinin təşkilində İKT-nin rolu kimi məsələlərə aydınlıq gətirilir.

Problemin aktuallığını nəzərə alaraq, ikipilləli ali təhsil sistemində tələbələrin müstəqil işlərinin təşkili və həyata keçməsinin

konseptual modeli hazırlanmalıdır. Bu model özündə metodoloji, nəzəri, məzmun-əməliyyat, təşkilati-metodik, yekun-qiymətləndirici blokları birləşdirir[28].

-Metodoloji blok müstəqil işlərin təşkilini metodoloji yanaşma və strategiyalarla təmsil edir.

-Nəzəri blok tələbənin tədris fəaliyyəti zamanı müstəqilliyini və bu müstəqilliyin pedaqoji prinsiplərini birləşdirir.

-Məzmun-əməliyyat bloku tələbənin müstəqil tədris fəaliyyətinə qoşulmasını, onun müstəqil işin məğzini və üsullarını anlamasını, bilik, bacarıq və vərdişlərə yiyələnməsini, onları praktikada göstərməsini, habelə tələbənin yaradıcı və elmi fəaliyyətə cəlb edilməsini nəzərdə tutur. Bu blokun əsas komponentləri aşağıdakılardır:

-şəxsi;

-motivasiya-məqsəd;

-məzmun-fəaliyyət[29].

Fikrimizcə, məzmun-əməliyyat blokunun şəxsi komponenti tələbənin müstəqil öyrənmə və təhsil fəaliyyətini şərtləndirir.

Təşkilati-metodik blokun əsas məqsədi tələbələrin müstəqil işlərinin təşkilinin metodoloji təminatını təşkil etməkdir. Başqa sözlə, bu blokun əsas məqsədi müstəqil işi həyata keçirmək üçün tələbəni mümkün vasitələrlə təmin etməkdir.

Yekun-qiymətləndirmə bloku tələbələrin müstəqil işlərinin təşkilinin monitorinqini reallaşdırır. Tədqiqatlar sübut etmişdir ki, tələbələrin müstəqil işlərinin təşkilinin konseptual modeli layihələşdirilərkən məşhur və sınaqdan keçirilmiş bir sıra yanaşmalar (sistem, kompleks, fəaliyyət, şəxsiyyətyönlü, kompetent, inteqrativ-modul yanaşmalar) və müasir təhsil strategiyalarının (tədris fəaliyyəti nəzəriyyəsi, problemli-situativ təhsil, kontekst təhsil, əməkdaşlıq şəraitində təhsil, layihə təhsili) istifadəsi daha məqsədəuyğundur.

Təlim fəaliyyətinin müvəffəqiyyətlə həyata keçirilməsi üçün tələbə yeni bilikləri müstəqil mənimsəmə qabiliyyətini özündə cəmləşdirən bir sıra kompetensiyalara (səriştələrə) sahib olmalıdır.

---

[28] Barsuk, R.Y. Azərbaycan məktəblərində xarici dil tədrisinin bəzi problemləri / R.Y.Barsuk. – Bakı: Maarif, – 1967. – 115 s.

[29] Bəşirov, B. Ali məktəb didaktikası / B.Bəşirov. – Bakı: Maarif, – 1992.

Müstəqil işə hazırlıq uğurlu təhsil fəaliyyətinin vacib şərtlərindən biridir. Müasir təhsil sistemində bilik sisteminin tələbələrə hazır şəkildə təqdimatından getdikcə daha çox müstəqil bilik əldə etmək qabilyyətlərinin inkişafına zəruriət yaranır. Bu isə təlim fəaliyyəti zamanı yeni yanaşmalara gətirib cıxarır. Həmin yanaşmaları isə aşağıdakı kimi xarakterizə etmək olar:[30]

-Sistemli yanaşma tələbələrin müstəqil işlərini təhsil mühitində tədris prosesi olan bir sistem kompleksi kimi nəzərdən keçirməyə imkan verir.

-Fəal yanaşma tələbənin subyektiv mövqeyini təmin edir, onun passiv məlumat istehlakçısı mövqeyindən tədris prosesində fəal iştirakçı mövqeyinə keçid ehtiyacını aktuallaşdırır, təhsil fəaliyyəti ilə əlaqəsində müstəqil təhsil fəaliyyətinin öyrənilməsinə və təsvirinə öz töhfəsini verir.

-Şəxsiyyətə yönəlmiş yanaşma, qarşılıqlı fəaliyyətdə yaradıcı fərdilik nümayiş etdirərək problemlərin həlli üçün müştərək hərəkət edən, tədris prosesinin subyektləri baxımından tələbələrin müstəqil işinin təşkili ehtiyacını əsaslandırır; müstəqil fəaliyyətin fərdi cəhətlərini və tələbənin öz müqəddəratını təyinetməsini və özünü tanıtmasını vurğulayır;

-Səlahiyyətli (kompetent yanaşma) yanaşma sonrakı təhsil və özünütəhsili özündə birləşdirən bir şəxsin formalaşması texnologiyasını müəyyənləşdirir, öz gücünü müstəqil təhsil fəaliyyəti prosesində müvafiq ümumi mədəni və peşə bacarıqlarının inkişafına yönəldilir.

-İnteqrativ-modul yanaşma fənlərarası əlaqələrin həyata keçirilməsini, auditoriya və auditoriyadankənar müstəqil işlərin inteqrasiyasını əhatə edir, tədris prosesinin modul təşkili, tələbələrin özünütəhsil fəaliyyətinə hazırlığı sisteminə inteqrasiyası ideyalarını həyata keçirməyə imkan verir.[31]

Reproduktiv səviyyə: tapşırıqların nümunəyə uyğun olaraq yerinə yetirilməsini (vəziyyətləri həll etmək, məlum metoddan fay-

---

[30] Бермус, А.Г. Проблемы и перспективы реализации компетент-ностного подхода в образовании (Электронный ресурс) // Эйдос. – 2005. – 10 сент. – URL: www.eidos.ru/journal/2005/0910-12.htm.

[31] Диниц, Г.Н. Самостоятельная работа как средство профессиональной подготовки студентов: / дис. … канд. пед. наук. / – Москва, 2003. – 176 с.

dalanaraq məşqlər etmək; cədvəllər doldurmaq və s.) nəzərdə tutur. Burada əsas məqsəd əldə edilmiş biliyin möhkəmləndirilməsi, bacarıqların formalaşdırılmasıdır. Tələbənin idrak fəaliyyəti tanıma, anlama və yadda saxlamada özünü göstərir. Onların bu səviyyədəki müstəqilliyi minimaldır, çünki müstəqil işlərə verilən təlimat və göstərişlər ciddi şəkildə tənzimlənir.

Rekonstruktiv səviyyə: (keçid və ya yarımyaradıcı) səviyyə birinci səviyyə nəticəsində yaranan, qərar və planların dəyişilməsi ilə nəticələnən rekonstruktiv xarakterli müstəqil işdir. Bu səviyyədə dərs materialının təhlili, keçmişdə mənimsənilmiş bilik, bacarıq və vərdişlərin analoji situasiyalarda tətbiqi, öyrənilmiş ifadələrin analoji situasiyalarda deyilməsi baş verir, bu müddət ərzində plan, tezislər, annotasiyalar hazırlanır. Bu səviyyədə referatlar yazıla bilir. Müstəqil işlərin həmin səviyyəsi böyük əqli fəaliyyət və yaradıcılıq (kreativlik) tələb edir. Tələbə bu zaman vəziyyətə uyğunlaşdırılmış metod(lar) tətbiq edir. Müstəqil işin rekonstruktiv səviyyəsində tələbənin yerinə yetirdiyi müstəqil iş reproduktiv səviyyə ilə müqayisədə müəllim tərəfindən nisbətən az tənzimlənir və idarə edilir. Nəticə etibarilə onun müstəqillik dərəcəsi artır.

Yaradıcı səviyyə: yaradıcı müstəqil iş hər hansı bir problem vəziyyətinin həlli üçün onun təhlilini və yeni məlumatlar əldə etməyi tələbata çevirir. Tələbə həmin problemlərin həll edilməsi üçün müstəqil olaraq həll yolları və metodları (təhsil və tədqiqat tapşırıqları, kurs və diplom layihələri) seçməlidir.

Tədqiqatlar nəticəsində aşkar edilmişdir ki, müstəqil işlərin qanunauyğunluqları aşağıdakı prinsiplər əsasında realizə olunur:

-tələbə müstəqil işinin keyfiyyətini və səmərəliliyini artırmaq üçün tədris prosesi subyektlərinin motivasiya prinsipi;

-tələbələrin elmi səviyyədə müstəqil işlərinin həllini təmin edən elmilik prinsipi;

-əlaqəli kurs, modul və fənlərarası müstəqil işlərin təşkilini nəzərdə tutan fənlərarası və inteqrativlik prinsipi;

-müstəqil işlərin tədris tapşırıqlarının müxtəlif növ, forma və metodlarından istifadə edilməsilə təşkili prinsipi;

-tələbələrin əməkdaşlıq və dialoqlaşma prinsipi, müstəqil işlərin yerinə yetirilməsi prosesində məhsuldar (produktiv) fəaliyyət;

-müstəqil işlərin təşkilində birlik və bütövlük prinsipi;

-müstəqil tədris fəaliyyətinin inkişaf və özünüinkişafa yönəldən prinsip;

-müstəqil təhsil fəaliyyətinin formalaşması prosesinin fasiləsizliyi prinsipi;

-peşə təhsili təşkili xarakteri ilə müstəqil təhsil fəaliyyətinin əvvəlcədən təyin edilməsi prinsipi;

-məzmun seçimində və müstəqil fəaliyyətin əhəmiyyətli bir sahəsində tələbənin sərbəstlik dərəcəsinin artırılması prinsipi; Təlim materialının məzmunu, təlim fəaliyyəti prosesində tələbələr tərəfindən mənimsənilir və təlimin də nəticəsi bu fəaliyyətin nə olduğuna bağlıdır.

Müstəqil işin təşkili üçün optimal metod və üsulları seçərkən müəllim tələbənin marağını təmin etməyə, tapşırığın həcmini dəqiq müəyyənləşdirməyə və hər tələbənin fərdi imkanlarını nəzərə alaraq onun yerinə yetirilməsi üçün əlverişli vaxtı hesablamağa çalışmalıdır. Tapşırığın həcminin həddən artıq olması, düzgün üsul və metodlardan istifadə edilməməsi, yaxud həddən artıq yüksək tələblər təlimin səmərəliliyini kəskin azaldır.[32]

Müstəqil fəaliyyət prosesində tələbənin yaradıcı motivasiyası, gələcək mütəxəssisin tədris və tədris-tədqiqat fəaliyyətinin fərdiləşməsi üslubu, özünü göstərmək, özünənəzarət, özünüidarə, özünüinkişaf etdirmə kimi xüsusiyyətləri yaranır və inkişaf edir. İngilis dili dərslərində tələbə gənclərin müstəqil işlərinin təşkilində motivasiya mühüm rol oynayır. Motivasiya termini müxtəlif illərdə müxtəlif alimlər tərəfindən araşdırılmış təhlilər aparılmışdır. Ümumi bir fikir motivasiya müəllimin təlim prosesini yaxşılaşdırmaq üçün hədəflə dediyi ən vacib amil kimi daim vurğulanmışdır.

Bəs motivasiya nədir? "Motivasiya" sözünü ilk dəfə A.Şopenhauer "Yetərli əsasın dörd prinsipi" (1900-1910) məqaləsində işlətmişdir. Sonra bu termin insan və heyvan davranışının səbəblərini

---

[32] Ибрагимова, Е.М. Методические рекомендации преподавателям по формированию исследовательской компетенции студентов в процессе проблемного обучения // Методическое пособие для преподавателей. – Казань: Изд-во Казан. ун-та, – 2016. – 52 с.

aydınlaşdırmaq üçün psixoloji termin kimi gündəlik həyatda möhkəm və dərin kök saldı.[33]

Merriam-Uebster lüğətində "motivasiya" motivasiya aktı və ya prosesi kimi verilir. Palmer tələbə motivasiyasını keyfiyyətli təhsil üçün zəruri bir element kimi nəzərdən keçirir. Brofiyə görə isə: *"Motivasiya öyrənməyə həvəsləndirmə, ümumi təcrübə nəticəsində əldə edilən bir səlahiyyətdir, lakin başqalarının (xüsusən valideynlər və müəllimlər) birbaşa göstəriş və ya rəhbərliyi ilə stimullaşdırılmışdır"*.[34]

Teylorun fikrincə, motivasiya termininin kök sözü hərəkətdir (hərəkət etmək). Öyrənmə ilə əlaqədar olaraq, motivasiya ümumiyyətlə daxili qüvvələri, dayanıqlı əlamətləri, stimullara davranış reaksiyalarını, inancları və təsirləri əhatə edir. Teylorun fikrincə, motivasiyanın öyrənilməsi iki əsas kateqoriyaya bölünə bilər: davranış və idrak nəzəriyyələri. Davranış nəzəriyyələri *"motivasiyanı sürət, dəyişiklik tezliyi və ya davranış formasına ətraf mühit hadisələri və stimulların funksiyası kimi baxır"*.[35]

Beləliklə, motivasiyanın mahiyyətinin açılmasına xidmət göstərən bütün təriflər iki istiqamətdə nəzərdən keçirilə bilər. Birinci istiqamətə struktur mövqedən olan motivasiyaya amillərin və ya motivlərin birləşməsi daxildir. Məsələn, V.D.Şadrikovanın sxeminə[36] əsasən, motivasiya şəxsiyyətin ehtiyac və məqsədləri, iddiaların və idealların səviyyəsi, fəaliyyət şərtləri (həm obyektiv, həm xarici, həm də subyektiv, daxili bilik, bacarıq, qabiliyyət, xarakter) və dünyagörüşü, inam və şəxsiyyət istiqamətləri və s. amilləri nəzərə alaraq, qərar qəbul edilir, niyyət formalaşır. İkinci istiqamət motivasiyaya statik deyil, dinamik bir formalaşma, bir proses, bir mexanizm kimi yanaşır.

---

[33] https://works.doklad.ru/view/xplnQ_OyAv0/all.html

[34] Anjomshoa, Leila & Sadighi Firooz. The Importance of Motivation in Second Language Acquisition / Anjomshoa, Leila & Sadighi Firooz. // International Journal on Studies in English Language and Literature (IJSELL). – Vol.3, Issue 2, – 2015. – p.126-137 (www.arcjournals.org)

[35] Taylor, W. Studying & Understanding Motivation [PDF document]. – 2012. Retrieved from Lecture Notes Online Web site: www.westpoint.edu/cfe.

[36] Зубра, А.С. Культура умственного труда студента // https.7/ knigogid.ru/books/102824-kultura-umstvennogo-truda-studenta/toread

Koqnitiv psixologiyanın nümayəndələri (J.Kelly) motivasiyanı ətraf mühitdən gələn məlumatların daimi təhlili əsasında insanın birbaşa davranışını idarə edən informasiya prosesi (fərdi isə orqanik hesablayıcı maşın) sayırlar. Onun törətdiyi əməllər rasionallıq, məqsədəuyğunluq, zərurilik və müəyyən hərəkətlərin həyata keçirilməsinin mümkünlüyü prinsipinə əsaslanır.[37]

Müasir pedaqoji psixologiya və didaktikanın əsas problemlərindən biri tələbələrin tədris fəaliyyətinin motivasiya edilməsidir. Bu məsələnin aktuallığı ona görə artır ki, istər tədqiqatçılar, istərsə də pedaqoqlar arasında tələbələrin müstəqil işlərinin motivasiya edilməsinin praktik həlli problemi çətindir və hələ də öz aktuallığını qoruyub saxlayır.

Araşdırmalar nəticəsində belə qənaətə gəlmək olar ki, tələbəni müstəqil işə motivasiya etməyə aşağıdakı amillərin təsiri vardır:

1) yerinə yetirilən işin faydalılığı. Problemin quruluşunda, sözsüz ki, nəticələrin əhatə dairəsi təşəkkül tapmalıdır. Müstəqil iş üçün təqdim olunan tədris materialı mütləq şəkildə attestasiyaya (imtahan) daxil edilməlidir;

2) tələbənin yaradıcı, praktik fəaliyyətdə iştirakı (tədris-tədqiqat, elmi-tədqiqat, metodik və s.);

3) yaradıcılıq tətbiq etməklə tapşırıqların fərdiləşməsi;

4) həll edilməsi üçün bilik tələb olunan bir mütəxəssisin gələcək peşə fəaliyyətinə aid həqiqi vəzifələrin təsviri;

5) tələbənin müstəqil işinin motivasiyası və aktivləşməsinə əsaslanan innovativ texnologiyaların, interaktiv formaların və tədris metodlarının tədris prosesinə tətbiqi;

6) tələbələrin tədris fənləri üzrə olimpiada və müsabiqədələrdə iştirakı;

7) tələbələrin müstəqil işlərinin monitorinqi və nəzarəti, onların qazandıqları nailiyyət haqqında informasiyanın toplanması;

8) tələbə üçün yaradıcılıq potensialını ortaya qoymağa və ümumi mədəni və peşə səlahiyyətlərinin inkişaf perspektivlərini

---

[37] Бунтова, Е.В. Активизация самостоятельной работы студентов и пути ее дальнейшего совершенствования // Известия Самарской государственной сельскохозяйственной академии. – 2012. №2, – с.160-164.

təyin etməyə kömək göstərə bilən, yüksək şəxsi və peşəkar səlahiyyətləri olan yenilikçi metodlara sahiblənən müəllim şəxsiyyəti.

İnformasiya və kommunikasiya texnologiyaları tədris prosesinin qurulmasının ənənəvi formalarından fərqli olaraq bir sıra mübahisəsiz üstünlüklərə malikdir: kommunikativ yönləndirmə, təhsil məlumatlarının vizuallaşdırılması, çoxlu miqdarda məlumat saxlamaq imkanı, yoxlama proseslərinin avtomatlaşdırılması, mənbələri asanlıqla əldə etmək, materialları daim dəyişdirmək və əlavələr etmək imkanı. Xarici dil dərslərində informasiya və kommunikasiya texnologiyalarından istifadə eyni zamanda tələbələrin motivasiyasının inkişafı üçün təsirli amildir.

Kompüter texnologiyalarından istifadənin üstünlüyü ağırlıq mərkəzinin şifahi tədris metodlarından müəllim və tələbənin axtarış və yaradıcı fəaliyyət metodlarına keçirilməsidir. Nəticə etibarilə müəllimin tədris prosesindəki rolu da dəyişir. Təhsil prosesində ən çox istifadə olunan İKT vasitələrinə aşağıdakılar daxildir:[38]

- kompüter və multimedia proyektorundan faydalanaraq nümayiş olunan elektron dərsliklər və dərsliklər;
- elektron ensiklopediyalar və arayış kitabları, simulyatorlar və test proqramları;
- İnternetin təhsil mənbələri;
- şəkillər və illüstrasiyalar olan DVD və CD-lər;
- video və səs avadanlığı;
- tədqiqat işləri və layihələr.

Tələbələrin xarici dil dərslərində müstəqil işləmələrinin ən təsirli yollarından birini kompüter təhsili adlandırmaq mümkündür. Kompüter təlimi bir sıra üstünlüklərə malikdir. Birincisi, kompüterlə işləmək tələbələrin böyük marağına səbəb olur və bu da öz növbəsində xarici dil öyrənmək motivasiyasını stimullaşdırır. İkincisi, müasir kompüter proqramları nitq fəaliyyətinin bütün növlərini öyrətmək üçün geniş imkanlara malikdir: tələbələr orijinal nitqi dinləyə, xarici dildə nitqini yaza və dinləyə, video izləyə və dinləyə, qrammatik tapşırıqları yerinə yetirə və yoxlaya, yazılı əsərlər meydana gətirə bilər-

[38] Richards, J.C. Methodology in Language Teaching / J.C.Richards, W.A.Reandya. – Cambridge: Cambridge University Press, – 2002. – 422 p.

lər. Bundan əlavə, ən vacib üstünlüklərdən biri də budur ki, müəllim eyni zamanda bütün tələbələrin işini tez bir zamanda yoxlaya, müstəqil işləri istiqamətləndirə bilir, bu da öz növbəsində müəllimin fəaliyyətini çox asanlaşdırır və nəticədə o, auditoriyada vaxtına qənaət edir.

Ali təhsil müəssisələrində xarici dil tədris edərkən tələbələrin müstəqil işlərinin interaktiv təlimi LMS MOODLE (Learning Management Systems Modular Object Oriented Dynamic Learning Environment) adlanan sistem vasitəsilə həyata keçirilə bilər. Qeyd etmək lazımdır ki, bu zaman kompüter istifadəçisindən kompüterə dair xüsusi bilik və bacarıqlar tələb edilmir. LMS MOODLE-n virtual platformasında yerləşdirilmiş interaktiv təlim modulu müəllimə interaktiv təlim texnologiyalarından faydalanmağa imkan verir.[39] Tələbələrin müstəqil işlərinin təşkili iki təlim funksiyasının yerinə yetirilməsinə yönəlmişdir; məsləhət və monitorinq. Məsləhət funksiyası tələbələrin müstəqil işlərinin yerinə yetirilməsinə yardım göstərməyi və tədris materialının mənimsənilməsi üçün zəruri olan iş metodlarının seçilməsini, dinləmə materiallarını məşq etmək imkanı yaradılmasını, tələbə üçün çətin məqamların izahını, tədris materialını birləşdirmək üçün praktik tapşırıqların yerinə yetirilməsini özündə birləşdirir. Nəzarət funksiyası nəzarət və ya test tapşırıqlarının verilməsini və tələbənin müvəffəqiyyətlərinin izlənilməsini əhatə edir.

İnternetin imkanlarından faydalanmaqla tələbələrin müstəqil işi iki əsas yolla realizə edilir:

1) tələbələrin auditoriyada yerinə yetirdikləri müstəqil iş;

2) tələbələrin auditoriyadankənar yerinə yetirdikləri müstəqil iş.[40]

Auditoriya şəraitində müstəqil iş dedikdə, internet vasitəsilə təmin edilmiş xüsusi kompüter otaqlarında müəllimin bilavasitə nəzarəti və rəhbərliyi altında tələbələrin yerinə yetirdikləri iş nəzərdə tutulur.

---

[39] Одинокая, М.А. Применение технологии интерактивного обучения для организации самостоятельной работы студентов // Вопросы методики преподавания в вузе. Санкт-Петербургский государственный политехнический университет, – 2013. №3(17). – с.228-235.

[40] Barsuk, R.Y. İngilis dili dərslikləri üçün metodik rəhbərlik (V-VIII siniflər) / R.Y.Barsuk, F.Seyidov, A.Mahmudova. – Bakı: Azərtədris, – 1964. – 96 s.

Auditoriyadankənar müstəqil iş isə, İnternetin imkanlarından istifadə etməklə xüsusi hazırlanmış tapşırıqları yerinə yetirmək üçün dərsdənkənar müstəqil işləməkdir.

İnformasiya və kommunikasiya texnologiyaları dedikdə, kompüter texnologiyasının və telekommunikasiya vasitələrinin istifadəsi ilə həyata keçirilən informasiya prosesləri və informasiya ilə iş üsulları başa düşülür. Müstəqil işin təşkilində İKT-dən istifadə bir sıra üstünlüklər təqdim edir:[41]

-distant təhsil və ona nəzarət imkanı yaradır;

-müstəqil fəaliyyətin təşkilini avtomatlaşdırır;

-audioriya tərəfindən qəbul edilən biliyin genişlənməsinə, möhkəmlənməsinə və dərinləşməsinə töhfə verir;

-problemlərin həllinə yaradıcı yanaşmanı inkişaf etdirir;

-informasiya və kommunikasiya kompetensiyalarını formalaşdırır.

Tələbələrin müstəqil işi tədris prosesinin ən mühüm tərkib hissələrindən biridir. Xarici dilin tədrisində müstəqil işin uğurlu təşkili tələbələrin müstəqil işinin təşkilində İnternet texnologiyalarından fəal istifadə edən müəllimin uğurlu fəaliyyətidir, çünki onlardan məharətlə istifadə tələbələrin idrak fəaliyyətini inkişaf etdirir, özünə nəzarət bacarıqlarının inkişafını formalaşdırır:

-öz biliyini və hərəkətlərini tənqidi qiymətləndirmək bacarığı aşılayır və tələbəni biliyin passiv istehlakçısından problemi formalaşdırmağı, onun həlli yollarını təhlil etməyi, optimal nəticəni tapmağı və onun düzgünlüyünü sübuta yetirməyi bacaran fəal biliyin yaradıcısına çevirməyə imkan verir.

Dissertasiya işinin IV fəsli **“Tələbələrin müstəqil işlərinin təşkilinə dair metod və layihələr çərçivəsində işin təşkili, praktiki eksperimentin qoyuluşu və onun nəticələri”** adlanır. Fəsildə tələbələrdə müstəqil iş üzrə kompetensiyaların formalaşdırılması və onların qiymətləndirilməsi meyarları, tələbələrin müstəqil işlərinin təşkilinə dair bacarıq və vərdişlərin formalaşdırılması üçün təlim

---

[41] Конышева, Н. Образовательная область “Технология”: Художественно-конструкторская деятель-ность. 56 с. // https://www.labirint.ru/books/248331

modelləri, eksperimentin təşkili, aparılması və nəticələri çərçivəsində elmi-tədqiqat həyata keçirilmişdir.

Müstəqil işin təşkilinə səriştəyə (kompetensiyaya) əsaslanan yanaşma birmənalı şərhə malik deyildir və bu sahədə müvafiq yanaşmalara alternativ olaraq qəbul edilmişdir. Bacarıqların, fəaliyyət metodlarının və ümumiləşdirilmiş fəaliyyət metodlarının mənimsənilməsinə yönəlmə V.V.Davıdov[42], İ.Y.Lerner[43], V.V.Krayevskiy[44], M.N.Skatkin[45] kimi alim və psixoloqların əsərlərində öz əksini tapmışdır.

Y.Y.Kogan səriştəyə əsaslanan yanaşmanı yeni yanaşma hesab edir və həmin yanaşmanın şüur dəyişikliyindən metodoloji bazanın dəyişməsinə qədər qlobal dəyişikliklərə səbəb olduğu fikrini müdafiə edir.[46]

V.İ.Zaqvyazinski "Səriştəyə əsaslanan yanaşma" konsepsiyasının təhlilini aşağıdakı kimi aparmışdır: *"Təhsildə səriştəyə əsaslanan yanaşma – müxtəlif sahələrdə fəaliyyət və ünsiyyətin həyata keçirilməsi üçün tədrisin kifayət qədər yüksək bilik, təcrübə, məlumatlılığa nail olmağa yönəldilməsi; bu yanaşma təhsil prosesinin yenidən qurulması üçün əsas ola bilər. Səriştəyə əsaslanan yanaşma biliyin vacibliyini inkar etmir, əksinə əldə edilmiş biliklərdən istifadə etmək bacarığına yönəlir".*[47] Beləliklə, səriştəyə əsaslanan yanaşmanın əsas məğzi nəzəri bilikləri praktik biliklərlə əvəzlənməsi deyil, nəzəri biliklərin hadisələrin izahı, praktik problem və vəziyyətlərin həlli üçün praktik vasitə olmasıdır. Səriştəli yanaşma əlavə təhsil və özünütərbiyə, müstəqil təhsil prosesində ümumi və peşəkar səriştələrin

---

[42] Давыдов, В.В. Проблемы развивающего обучения / В.В.Давыдов. – Москва: – 1986.

[43] Лернер, И.Я. Концепция базового содержания образования / И.Я.Лернер. – Москва: – 1991.

[44] https://biserochek.ru/az/cooking/metodika-provedeniya-samostoyatelnoi-raboty-v-vuze-samostoyatelnaya-rabota-studentov-i-ee-metodika-v/

[45] http://edu.gov.az/upload/file/bolonya-milli-hesabat.pdf

[46] Бермус, А.Г. Проблемы и перспективы реализации компетент-ностного подхода в образовании (Электронный ресурс) // Эйдос. – 2005. – 10 сент. – URL: www.eidos.ru/journal/2005/0910-12.htm.

[47] Педагогический словарь: учеб. пособие для студ. высш. учеб. заведений / под ред. В.И.Загвязинского, А.Ф.Закировой. – Москва: Академия, – 2008. – 352 с.

inkişaf etdirilməsinə qadir olan səriştəli şəxsiyyətin formalaşdırılması texnologiyasını müəyyənləşdirir. Səmərəli peşə hazırlığı, universitet tələbələrinin müstəqil işinin təşkili üçün səriştəyə əsaslanan yanaşmanın tətbiqi ilə asanlaşdırılır. Bu, indiki mərhələdə təhsil paradiqmasının dəyişdirilməsinin prioritet meylinin "ömür boyu təhsil" olması ilə əlaqədardır.

Y.N.Truşenkoya görə isə: "*Tələbələrin müstəqil işinin təşkili üçün səriştəli bir yanaşmanın həyata keçirilməsi aşağıdakı şərtlərə riayət edildikdə mümkündür:*

*-tələbələrin daxili, xarici və prosessual motivasiyasının inkişafı vasitəsilə onların müstəqil işlərin həllinə motivasiya ilə təmin edilməsi;*

*-tələbələrin tədris fəaliyyətindən birbaşa professional fəaliyyətə keçidini təmin edən tədris kurslarının layihələşdirilməsi;*

*-telekommunikasiya texnologiyalarının imkanlarından faydalanmaqla tələbələrin tədris fəaliyyətinin metodik təchizatı;*

*-gələcək mütəxəssisin şəxsiyyətinin peşəkar formalaşması prosesinin monitorinqi əsasında tələbələrin müstəqil işlərinə nəzarətin təmin edilməsi".* [48]

Müasir təhsil paradiqmasında tələbələrin müstəqil işlərinə əhəmiyyətli bir didaktik məqsəd qoymağı mümkün edən kompetensiyalı yanaşma qurmağın əsas prinsipləri O.E.Lebedev[49] tərəfindən irəli sürülmüşdür. Bu prinsiplərə görə, təhsildə kompetensiyalı yanaşmanın əsas mənalarından biri tələbələrin müstəqil işləmək bacarığının formalaşması, kompetensiyalı yanaşma çərçivəsində isə təhsil prosesinin təşkil edilməsinin əsası tələbələrin müstəqil işidir.

A.N.Konışeva belə hesab edir ki: *"İngilis dilinin öyrənilməsi bilikdən daha çox bacarıq tələb edir. İngilis dilinin mənimsənilməsi tələbələrin tələffüz, lüğət, qrammatika, orfoqrafiya və digər bacarıqlarının formalaşması ilə əlaqədardır. Bunun əsasında dinləmək, danışmaq, oxumaq və yazmağı bacarmaq qabiliyyəti inkişaf edir və*

---

[48] Трущенко, Е.Н. Методические рекомендации по организации самостоятельной работы студентов в вузе / Е.Н.Трущенко. – Майкоп: Изд-во "Аякс", – 2008. – 24 с.

[49] Лебедев, О.Е. Компетентностный подход в образовании // Школьные технологии. – 2004. №5, – с.3-12.

*təkmilləşir. Bacarıqlar, bildiyimiz kimi, yalnız tədris materialı ilə müəyyən hərəkətlərin, yəni öyrənilən dildə təkrar dinləmək, tələffüz etmək, oxumaq və yazmaq imkanı verən bu cür hərəkətlərin sistemli şəkildə həyata keçirilməsi zamanı inkişaf edir. Qeyd etmək lazımdır ki, heç bir fənnin öyrənilməsi xarici dil kimi mütəmadi, sistemli iş tələb etmir".*[50]

Tələbələrin müstəqil işinin uğurlu təşkilini təmin etmək məqsədilə, təbii ki, mövcud vəziyyətin təhlilindən əldə olunmuş nəticələr əsasında çatışmazlıqları aradan qaldıra və daha səmərəli tədris mühiti yarada biləcək mərhələli modellər təklif olunur.

Müstəqil öyrənmə modeli: 1. Sual 2. Planlaşdırma. 3. Aşkar etmək və qiymətləndirmək. 4. Əsas məlumatın təşkil olunması. 5. Sintez. 6. Əks etdirmə. 7. Kommunikasiya yaratmaq. 8. Qiymətləndirmək.

Eksperimentin təşkili üçün vacib məqamlardan biri müstəqil iş növlərini seçərkən, onun həcmini və məzmununu müəyyənləşdirmək, bütün tədris prosesində olduğu kimi, didaktikanın əsas prinsipləri rəhbər tutulmalıdır. Bu məsələdə ən əhəmiyyətlisi əlçatanlıq və sistemlilik prinsipi, nəzəriyyə ilə praktika arasındakı əlaqə, çətinliklərin artmasında tədricilik prinsipi, yaradıcılıq fəaliyyəti prinsipi, eyni zamanda tələbələrə fərqli yanaşma prinsipidir. Bu prinsiplərin aşağıdakı özünəməxsus xüsusiyyətləri vardır.

Müstəqil işin səmərəliliyi əsasən müəllimdən, yəni onun səriştəsindən; tələbənin müstəqil işə münasibətini formalaşdırmaq bacarığından; bacarıqları öyrətmək və həmin bacarıqların qurulması prosesini idarə etmək qabiliyyətindən; tələbələrlə ayrı, cüt və ya yaradıcı kollektivdə işləmək bacarığından; onlarla yaradıcılıq işini həyata keçirməyə imkan verən kompüter texnologiyalarına sahib olmaqdan asılıdır.[51]

ADU-nun Təhsil-1 və Təhsil-2 fakültələrində üç mərhələdən ibarət təcrübi eksperiment aparılmışdır.

---

[50] Одинокая, М.А. Модуль интерактивного обучения иностранному языку в техническом вузе / М.А.Одинокая. Под ред. Поповой Н.В. Электронный ресурс: LMS MOODLE [Electronic resource] / – 2014.

[51] Doughty, C.J. The Handbook of Second Language Acquisition / C.J.Doughty, M.H.Long. – UK: Blackwell Publishing Ltd, – 2003. – 887 p.

Eksperimentin mjüəyyənedici mərhələsində qarşıda duran əsas məqsəd Təhsil-1 və Təhsil-2 fakültələri üzrə təhsil alan II və III kurs tələbələrinin müstəqil iş bacarıqlarının cari və faktiki inkişaf səviyyəsini yoxlamaqdan ibarət idi.

İkinci mərhələ eksperimental tədris mərhələsidir. Burada qarşıya qoyulan məqsəd təklif olunan təlim modellərinin köməyilə hazırladığımız sillabusa əsasən, Təhsil-1 və Təhsil-2 fakültələrində II və III kurs tələbələrinin müstəqil işlə bağlı inkişaf səviyyəsini artırmaq və bu sahədə onlara düzgün istiqamət verməkdir.

Eksperimentin üçüncü – yoxlayıcı mərhələsində isə, əsas məqsəd Təhsil-1 və Təhsil-2 fakültələrində tərtib olunmuş sillabuslara əsasən seçilmiş mövzular, təlim modelləri və müstəqil işlərin səmərəlilik dərəcəsinin yoxlanılmasıdır.

Təcrübi-eksperimental tədqiqatın məqsədinə əsasən onun qarşısına aşağıdakı vəzifələr qoyulmuşdur:

1. Linqvistik, pedaqoji-psixoloji əsaslardan çıxış edərək təcrübi-eksperimental tədqiqatın bazasının müəyyənləşdirilməsi və təşkilati ardıcıllığın təsvir olunması və əsaslandırılması;

2. ADU-nun Təhsil-1 və Təhsil-2 fakültələrində oxu, yazı, danışıq və dinləmə bacarıqlarının faktiki inkişaf səviyyəsini təyin etmək və bundan da çıxış edərək onlar üçün yaradılmış müstəqil işlərin həyata keçirilməsi üçün diaqnostik metodikanın işlənib hazırlanması, təsvir olunması və eksperimental şəkildə aprobasiyası;

3. Eksperiment və kontrol qrupların Təhsil-1 və Təhsil-2 fakültələri üzrə təyini və seçimi;

4. Ekspert qrupunun təyin olunması;

5. Eksperiment və kontrol qrup tələbələrinin müstəqil işi ərsəyə gətirmək istiqamətində mövcud bacarıqlarının inkişaf səviyyəsinin təyin olunmuş metodika üzrə müəyyənləşdirilməsi;

6. Müəyyənləşdirici eksperimentin nəticələrinin təhlili;

7. Müstəqil işin yerinə yetirilməsi üçün vacib olan pedaqoji şərtləri müəyyənləşdirmək, metod və layihələrin, həmçinin müstəqil işlər toplusunu işləyib hazırlamaq, təsvir etmək və həmin metodlar üzrə müstəqil işlər sisteminin əsasında dərslərin təşkili;

8. Müstəqil işlə bağlı təşkil olunmuş tapşırıq və toplular sistemi əsasında aparılmış eksperimental tədrisin nəticələrinin yoxlanılması;

9. Faktların, dəlillərin, sorğu materiallarının toplanması və onların məqsədəmüvafiq şəkildə təhlili;

10. Təhlil əsasında eksperimental tədrisin səmərəlilik səviyyəsinin müəyyənləşdirilməsi və riyazi-statistik metod vasitəsilə nəticələrin təsdiq və əks olunması;

11. Təcrürbi-eksperimental tədqiqatın ümumi nəticələrinin sistemləşdirilməsi və ümumiləşdirilməsi;

12. Əldə olunmuş nəticələrə əsasən Təhsil-1 və Təhsil-2 fakültələrində təqdim edilən müstəqil iş üzrə tədrisin nə dərəcədə yararlı və uyğun olmasının müəyyənləşdirilməsi.

Aparılmış elmi-nəzəri tədqiqatlara görə təhlil və analizlərə görə və eyni zamanda Təhsil-1 və Təhsil-2 fakültələrində aparılmış eksperimentin **nəticəsi** olaraq aşağıdakı qənaətlərə gəlmişik:

1. Eksperimentdə iştirak edən tələbələr (45 tələbə) yerli mənbələrdən istifadə meyarı faiz göstəricisinə görə yüksək faizlə işarələnmişdir, lakin eksperimentdən sonra bu göstərici daha da yüksəlmişdir.

2. Eksperimentdə iştirak edən tələbələrdə xarici mənbələrdən istifadə meyarı eksperimentdən öncə faiz göstəricisinə görə, 78,7% təşkil etsə də, eksperimentdən sonra bu göstərici təqribən 99,3% qalxmışdır.

3. Eksperimentdə iştirak edən tələbələrdə motivasiya meyarları üzrə eksperimentdən öncə faiz göstəricisinə görə 46,7% təşkil etsə də, eksperimentdən sonra bu göstərici təqribən 98,3% qalxmışdır.

4. Eksperimentdə iştirak edən tələbələrdə İKT-dən istifadə meyarında da artım müşahidə edilmişdir.

6. Eksperimentdə iştirak edən tələbələrdə muəllimlə məsləhətləşmələr meyarında da 40%-dən çox irəliləmə vardır.

7. Eksperimentdə iştirak edən tələbələrdə işlə bağlı əldə edilmiş materialın təhlili və sistemləşdirilməsi meyarında göstəricilər 39,7%-dən 97,8%-ə yüksəlmişdir.

8. Eksperimentdə iştirak edən tələbələrdə işin tərtibatı və sistemliliyi 95%-dən çox artmışdır.

ADU-nun Təhsil-1 və Təhsil-2 fakültələri üzrə aparılmış eksperimentdən sonra, üzə çıxan problemin öyrənilməsi və təhlilini də apardıq.

Təhsil-1 və Təhsil-2 fakültəsində dərsləri və müstəqil işləri və onların gedişatını müşahidə etdikdən sonra bu fakültənin tələbələri arasında müstəqil işin yerinə yetirilməsi istiqamətində aşağıdakı problemlərin olduğu aşkara çıxmışdır:

1. Qeyd edilmiş fakültələrdə müstəqil işin mövzularının müəyyənləşməsində tələbə ehtiyacları (Learner Needs) bir o qədər nəzərə alınmamışdır. Tələbə ehtiyacı bir qayda olaraq, tələbənin maraq göstərdiyi sahə ilə bağlı olur və müstəqil işlərin mövzuları müəyyənləşəndə tələbələrlə hansısa bir formada söhbətlər aparıb onların ehtiyacını öyrənmək və müstəqil işi də bu ehtiyaca uyğun olaraq tərtib etmək məqsədəuyğun olardı.

2. Müstəqil işlərin yerinə yetirilməsi ilə bağlı metodiki vəsait, kitabça, dərslik və yaxud da hansısa bir məlumat toplusunun, həmçinin müəllimlər üçün seminar və mühazirələrin təşkil olması işin xeyrinə olardı. Tələbələri maraqlandıran bu tip məsələlərə cavab tapa bilərlər. Bu sahədə dərslik vaxud dərs vəsaitlərinin, metodiki vəsaitlərin yazılmasının məqsədəuyğun hesab edirik, çünki müstəqil işi yerinə yetirən tələbə işin gedişatında bir sıra suallarla rastlaşır ki, onlara da bəzən müəllimlər belə cavab verə bilmir.

3. Müstəqil işlə bağlı hər hansı bir seçmə fənnin olması bir sıra məsələlərə aydınlıq gətirərdi. Ən azından müstəqil işlərin yerinə yetirilməsi ilə bağlı təlimlər də (bir neçə günlük) keçirmək olar. Bu təlimlərdə tələbələr müstəqil işin tərtibat qaydalarından tutmuş, işin təhlil olunması və sistemləşdirilməsinə qədər bütün prosedurlar barədə məlumat əldə edə bilər.

4. Daha bir problem tələbələrdə motivasiyanın yaradılması məsələsidir. Məlum olduğu kimi, motivasiya iki tip olur: daxili motivasiya və xarici motivasiya. Tələbələrdə motivasiya yaratmaq fənn müəllimlərinin öhdəsinə düşür. Ekspert qrupunda iştirak edən müəllimlər b/müəl. Aytən Kazımova, dos. Günay Şirəliyeva və s. bu işdə öz tələbələrinə yüksək səviyyədə motivasiya verməklə seçilir. Motivasiya işin daha keyfiyyətli nəticələnməsinə kömək edir.

5. Tələbələrə verilən müstəqil işlərin həcmi ilə bağlıdır. Güman edirik ki, II kurs tələbələri ilə digər III kurs tələbələrinin yerinə yetirdiyi müstəqil işlər eyni səviyyədə və eyni həcmdə olmamalıdır. Eləcə də magistrantlara da müstəqil işlərin bəzi növləri verildikdə

həcm məsələsi diqqətdən kənarda qalmamalıdır. Misal üçün, bütün kurs tələbələrinə bəzən eyni həcmli müstəqil işlər verilir. Bu məsələyə təkcə müəllimlər və həm də kurslar üzrə bölmə rəhbəri, kafedra müdiri nəzarət etməlidir. Təcrübələr nəticəsində məlum olmuşdur ki, müstəqil işlərin yaradıcılıq səviyyəsi ən çox yuxarı kurs tələbələri tərəfindən yerinə yetirilir. Problemlə bağlı pedaqoji ədəbiyyatın təhlili, universitetdə müstəqil işin təşkilinin məqsədyönlü şəkildə müşahidəsi və Azərbaycan Dillər Universitetindəki praktik iş təcrübəmizə əsasən formalaşdırılılan tədqiqat hipotezinin mahiyyəti aşağıdakı kimidir. Dərsdənkənar vaxtlarda tələbələrin aktiv müstəqil akademik işləri aşağıdakı hallarda effektiv və səmərəli ola bilər:

-əgər dərsdənkənar vaxtlarda tələbələrin aktiv müstəqil akademik işləri universitetdənkənar məşğələlərin məzmunu, forma və metodlarının ardıcıl davam etdirilməsində və birləşməsində özünü büruzə verən inteqrasiya olunmuş bir yanaşma əsasında həyata keçirilirsə;

-təlim prosesinin bütün sahələrinə (ideoloji, siyasi, əmək, mənəvi, estetik) üzvi birlik, qarşılıqlı əlaqə və qarşılıqlı nüfuzetmə təmin edilərsə;

-müstəqil yaradıcı tapşırıqların yerinə yetirilməsində ümumi təhsil, inkişaf və tərbiyə funksiyalarının vəhdəti həyata keçirilirsə;

6. Ali təhsil müəssisələrində ingilis dilinin tədrisi prosesində tələbələrin müstəqil işlərinin təşkilinin əsas məqsədi yüksək səviyyədə ixtisaslı mütəxəssislərin hazırlanması olmaqla tələbələrin ingilis dili bilik, bacarıq və vərdiş səriştələrinə yiyələnməsi olduğundan, tələbələrin diqqət, qavrayış və yaddaşlarının inkişafı xüsusi önəm daşıyır. Həmçinin ingilis dilinin tədrisi prosesində tələbələrin müstəqil işlərinin düzgün təşkili bir sıra psixoloji amillərdən: tələbələrin maraqları, müəllim-tələbə münasibətlərinin düzgün qurulması, tələbələrin hazırlıq səviyyəsindən, yəni onların fizioloji və zehni qabiliyyətlərindən asılıdır ki, bu da tələbələrin təhsildə müvəffəqiyyət göstərməsinə yardımçı olur.

7. Müstəqil iş tələbələrə bilikləri sistemləşdirməyə, möhkəmləndirməyə, ixtisas üzrə nəzəri biliklərini və praktik bacarıqlarını daha da genişləndirməyə, konkret elmi-texniki, iqtisadi, istehsal və digər məsələləri həll etməyə imkan verir, onlarda müstəqilliyi inkişaf

etdirir, elmi-tədqiqat metodlarından istifadə etmək və eksperiment qoymaq qabiliyyəti aşılayır. Müstəqil işin icrası zamanı tələbə elmi informasiyaları axtarıb tapa bilir, bu və ya digər fikri, ideyanı əsaslandırır, idrakı fəallıq göstərir, başqasını təkrar etmir, icrasının yeni, orijinal yolunu, tərzini tapır. Bir sözlə, müstəqil işlər tələbənin inteqral xüsusiyyətlərini formalaşdırır. Tələbədə müstəqil elmi-pedaqoji işləri aparmaq imkanları geniş vüsət alır, müvafiq bacarıq formalaşdırır.

8. Müstəqil iş prosesində tələbənin aktiv zehni fəaliyyətinə nail olmaq müəllimin bu işi sistematik şəkildə təşkil etməsi və bacarıqla idarə etməsi şərtilə mümkündür. Hər hansı bir təlim prosesi kimi tələbənin müstəqil işi də müəllimlər tərəfindən planlaşdırılır.

9. Müstəqil işin təməl tədris proqramlarının və tədris planlarının fənləri daxilində tədris modulu kimi daxil edilməsinin zəruriliyini əsaslandırır. Xarici dilin tədris prosesinin təşkili üçün yalnız müəllimin işinə, tədris metodikasına aid məsələləri deyil, eləcə də tələbələrin xarici dil dərslərində və dərsdən kənar müstəqil işinin təşkili məsələlərini, daha doğrusu, öyrənmə və bacarıqların mənimsənilməsi məsələlərini araşdırmaq vacibdir.

10. Artıq tədris prosesinin optimallaşdırılması yolları sistemi olan kompyuterin və kompyuter şəbəkələrinin didaktik funksiyaları tələbələrin müstəqil işində sistemli və məqsədyönlü şəkildə, tələbələrin təhsil fəaliyyətinin idarə edilməsi və özünüidarəsinin rasional birləşməsi ilə həyata keçiriməlidir; Tələbələrin müstəqil işini təşkil edərkən, təlimin mövzusu, tələbələrin təcrübəsi, onların dil qabiliyyətində məqsədyönlü, planlı bacarıq və bacarıqların formalaşdırılması prosesi, bu prosesin idarə edilməsi yolları və konkret təlim şəraiti diqqətlə tarazlaşdırılmalıdır.

11. Gündəlik və təlim tapşırıqlarından tutmuş analitik və tədqiqat işlərinə qədər bütün fəaliyyətlərə hazırlıq işlərini müstəqil iş rejimində həyata keçirmək olar. Müstəqil iş yalnız tədris prosesinin vacib bir forması deyil, gələcək mütəxəssisin peşə müstəqilliyinin formalaşması üçün əsasdır, əsas məqsəd isə – peşəkar səriştənin formalaşmasına töhvə verərək onun peşəkar və idrak maraqlarını stimullaşdırmaqdır.

12. Müstəqil fəaliyyət prosesində tələbənin yaradıcı motivasiyası, təhsil və tədris-tədqiqat fəaliyyəti üslubunun fərdiləşdirilməsi,

özünü aktuallaşdırma, özünü idarəetmə, özünü inkişaf etdirmə və gələcək mütəxəssisin digər şəxsi keyfiyyətləri özünü göstərir. Tələbələrin müstəqil işləmələri üçün ciddi davamlı motivasiyasının olması onun effektivliyinin şərtsiz zəmanətidir. Tələbələrin yerinə yetirilən işin faydalılığını başa düşmələrində özünü göstərən prosessual (təhsil) motivasiyasının formalaşdırılması xüsusilə vacibdir.

13. Ən məşhur və səmərəli İKT vasitəsi multimediadır. Onların üstün cəhəti təlimin fərdiləşməsi imkanları, böyük həcmli məlumatlarla işləmək imkanlarının olmasıdır. İnternetdə məlumatların axtarışı, təhlili və emalı sahəsində tələbələrin müstəqil fəaliyyəti hər bir tələbəyə məlumat toplamağı, qiymətləndirməyi, sintez etməyi və praktikada tətbiq etməyi öyrətməyə imkan verir.

14. Kompetensiyaya əsaslanan yanaşma tələbələrin təhsil fəaliyyətlərini gələcək peşə fəaliyyətlərinə yaxınlaşdırmağa imkan verir.

15. Təlim tapşırığını yerinə yetirmək, tapşırıq alqoritmi tərtib etmək, faktları toplamaq və təhlil etmək, problemlərin həlli və nəticələrini qiymətləndirmək üçün səmərəli yol tapmaq muellimin vəzifəsidir. Müstəqil iş o zaman səmərəli ola bilər ki, ona təlim fəaliyyətinin bütün mərhələlərini əhatə edən vahid bir sistem kimi yanaşılsın.

Tədqiqatla bağlı aşağıdakı **təklifləri** irəli sürmək mümkündür:

Müstəqil işin səmərəli təşkili üçün təlim fəaliyyəti zamanı müasir tədris vasitələrinin nəzərə alınması vacib məqamdır. İşin təşkilində müasir tədris vasitələrinin rolu və tələbə fəallığının artırılması zamanı aşağıdakı təkliflər nəzərə alınmağı məqsədəuyğundur.

1. Kompüter və multimedia proyektorlarının tədris prosesində istifadəsi, elektron dərsliklərin nümayişi, tədris materiallarının təqdim olunması zamanı vizual dəstək, elektron ensiklopediyalar və arayış kitabları ensiklopedik biliklərin tələbələrin bilik bazasının genişləndirilməsində elektron formatda istifadənin üstünlükləri, simulyatorlar, test proqramları, tədris prosesində interaktiv yanaşmanın əhəmiyyəti və müxtəlif dillər üzrə praktiki bacarıqların inkişafı müstəqil işin təşkilində nəzərə alınmalıdır.

2. Təhsil məqsədli internet mənbələrinin istifadəsi, elektron kitabxanalar və elmi jurnallar, tədris materiallarının axtarışı və tədqiqatlarda istifadəsi, həmçinin multimedia resursları, şəkillər, illüstra-

siyalar, DVD və CD-lər, video və audio resurslardan istifadə edərək dinləmə və danışıq bacarıqlarının inkişafı, telekommunikasiya texnologiyaları, onlayn dərslərin təşkili və tələbələrin birgə layihə hazırlığında iştirakını asanlaşdıran platformalar tələbənin müstəqil düşünməyə imkan yaradır.

3. Smart Board və İnteraktiv lövhə texnologiyaları, testlərin və təlim materiallarının hazırlanması və interaktiv metodlardan istifadə edərək qrammatika və leksika təlimi, videoların nümayişi və tapşırıqların inteqrasiyası, tədris fəaliyyətinin metodiki təchizatı, müstəqil işlər üçün xüsusi proqramların yaradılması, İKT vasitələri ilə tələbələrin işlərinin monitorinqi, elektron resursların istifadəsi ilə müstəqil işlərin təşkili, əsas və əlavə ədəbiyyatın öyrənilməsi, məlumatın internetdən axtarışı və tədris üçün uyğunlaşdırılması, praktik tapşırıqların yerinə yetirilməsi, reproduktiv tipli tapşırıqlar (testlər, suallar və cavablar), yaradıcı tapşırıqların hazırlanması (məruzə, təqdimatlar, layihələr) tələbələri əmək bazarında müstəqil fəaliyyətə hazırlanmasında mühüm rol oynayır .

4. Praktik istifadə və tövsiyələr, audio və video materialların istifadəsi ilə praktiki məşğələlər, videoçarxların analizi və audio faylların dinlənməsi və sonrakı müzakirələr, layihə işləri və tədqiqat fəaliyyətləri, qrup və cüt şəkildə layihələrin hazırlanması və məhsulun və ya layihənin analoqlarının öyrənilməsi, tələbələrin akademik nitq hazırlığı, konfrans çıxışlarının məşqi hesabat və tezislərin hazırlanması biliyin bacarığa çevrilməsində vacib məqamlardan biridir.

Beləliklə, aşağıda qeyd etdiyimiz məqsəd, tətbiq və məhsuldarlıqdan ibarət struktur ali məktəb müəsissələrində ingilis dilinin tədrisi prosesində müstəqil işin təşkilinə dair müəllim və tələbənin müstəqil fəaliyyətinin səmərəli yolları kimi öz təsdiqini tapmışdır.

1. Dialoqların qurulması və mini konfransların keçirilməsi.

1.1. Məqsəd: Tələbələrin ünsiyyəti çərçivəsində aktiv çıxış etmə bacarıqlarının işə salınması.

1.2. Tətbiq: Tələbələr üçün real situasiyaları əks etdirən dialoqlar təqdim olunması. Mini konfransların planlanması və moderatorluq rollarının mübadilə edilməsi.

1.3. Məhsuldarlıq: Fərqli baxışları öyrənmə və tələbələr arasında ünsiyyət bacarıqlarını inkişaf etdirmə.

2. Təlim və ünsiyyət məşğələlərinin icrası.

2.1. Məqsəd: Tələbələrin kommunikativ kompetensiyalarını təkmilləşdirmək.

2.2. Tətbiq: Fərqli oyunları və qrup təlimlərini daxil etmək. Fəaliyyətlərə müdaxilə etmək, diskussiya, beyin fırtınası, debat formatını daxil etmək və müzakirə etmək.

2.3. Məhsuldarlıq: Tələbələrarası dialoq üçün təbii mühit yaratmaq.

3. Təhsilin fərdiləşdirilməsi.

3.1. Məqsəd: Tələbələrin öz öyrənmə tərcihlərinə uyğun proses yaratmaq.

3.2. Tətbiq: Tələbələrin öz öyrənmə planlarını yaradıb izləməsini təşviq etmək. Təlim materiallarını tələbələrin ehtiyaclarına görə fərqləndirmək.

3.3. Məhsuldarlıq: Tələbələrin öz imkanlarını tanıması və özünə inamın artırılması.

4. Tələbə fəallığının srtırılması.

4.1. Məqsəd: Tələbələrin dərslərdə aktiv şəkildə iştirak etməsini təmin etmək.

4.2. Tətbiq: Qrup tapşırıqları və interaktiv rəqabət oyunları tətbiq olunması. Tələbələrin dərs gündəliklərini aparması.

4.3. Məhsuldarlıq: Tələbələrin dərs prosesinə olan motivasiyası artacaq.

5. Öyrənmə motivasiyasını artırmaq.

5.1. Məqsəd: Dərslərə marağı artırıb davamiyyəti yüksəltmək.

5.2. Tətbiq: Texnoloji vasitələrin istifadəsi və təhsil prosesinə maraqlı materialları daxil etmək.

5.3. Məhsuldarlıq: Tələbələrin dərslərə mənfi yanaşmasını minimuma endirmək.

6. Müstəqil iş üçün şərait yaratmaq.

6.1. Məqsəd: Tələbələrin öz resurslarından səmərəli istifadə etməsi.

6.2. Tətbiq: Tələbələrə öz layihələrini yaratmaq imkanı. Onlayn öyrənmə platformalarına asanlıqla daxil olmaq.

6.3. Məhsuldarlıq: Özünüidarəetmə bacarıqlarının artırılması.

7. Tələbəyönlü və fərqləndirilmiş təlim.

7.1. Məqsəd: Fərdə xas ehtiyacları qarşılamaq.

7.2. Tətbiq: Təlim planlarında multiproqramın təmin olunması. Fərqli qiymətləndirmə metodlarını daxil etmək.

7.3. Məhsuldarlıq: Təlim prosesinin daha ədalətli və çoxşaxəli etmək.

8. Tədris materialının məntiqi və quruluşu.

8.1. Məqsəd: Materıalları əlçatan, oxunaqlı və anlaşıqlı etmək, öyrənmə prosesini sadələşdirmək.

8.2. Tətbiq: Materialları struktur şəkildə təqdim etmək. Planlaşdırılmış modul sistemi yaratmaq.

8.3. Məhsuldarlıq: Daha çevik və effektiv öyrənmə mövcudluğu.

9. Tələbələrin bilik keyfiyyətini yaxşılaşdırmaq.

9.1. Məqsəd: Təlim prosesinin effektivliyini artırmaq.

9.2. Tətbiq: Düzgün qiymətləndirmə və müxtəlif metodlar. Təkrar auditoryadaxili və xarici fəaliyyətlər.

9.3. Məhsuldarlıq: Dərslərə olan marağın artması, xarici motivasiyanın daxili motivasiyaya cevrilməsi.

**Dissertasiya işinin məzmunu, əsas elmi ideyaları və nəticələri iddiaçının çap etdirdiyi aşağıda adları göstərilən məqalə və konfrans materiallarında öz əksini tapmışdır:**

1. Rzayeva, F.Ə. Tədrisin aşağı mərhələsində texnologiyalardan istifadənin yeri və rolu // – Bakı: Bakı Slavyan Universiteti, Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Mütərcim, – 2016. №4, – s.309-311.

2. Rzayeva, F.Ə. Ali məktəbdə ingilis dilinin öyrənilməsində mühüm məsələ // – Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutu, Elmi əsərlər, – 2017. – Cild 84. №1, – s.48-52.

3. Rzayeva, F.Ə. Xarici dillərin tədrisində tərcümənin yeri və rolu // – Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutu, Elmi əsərlər. Mütərcim, – 2017. – Cild 84. №6, – s.78-81.

4. Rzayeva, F.Ə. Eşidib-anlama vərdişlərinin inkişafında istifadə olunan vasitələr // – Bakı: Bakı Qızlar Universiteti, Elmi əsərlər. Mütərcim, – 2017. №4(32), – s.145-149.

5. Rzayeva, F.Ə. Qrammatik çalışmaların tətbiqi zamanı autentik materiallardan istifadənin yeri və rolu // – Bakı: Bakı

Slavyan Universiteti, Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Mütərcim, – 2017. №4, – s.287-290.

6. Rzayeva, F.Ə. Dil dərslərində müstəqil işin təşkili zamanı meydana gələn problemlərin aradan qaldırılması məsələləri // – Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutu, Elmi əsərlər. Mütərcim, – 2018. – Cild 85. №8, – s.173-176.

7. Rzayeva, F.Ə. Rzayeva, F.Ə. Tədris prosesində tələbələrin müstəqil işlərinin təşkilində qarşıya qoyulan məqsəd və vəzifələr // – Bakı: Azərbaycan Dillər Universiteti, Dil və ədəbiyyat, – 2019. – Cild IX. №4, – s.84-93.

8. Rzayeva, F.Ə. Cütlərlə və qrup şəkilində müstəqil işin təşkilinin səmərəli yolları // – Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutu, Elmi əsərlər. Mütərcim, – 2019. – Cild 86. №2, – s.187-189.

9. Rzayeva, F.Ə. Müstəqil işin təşkili zamanı mühüm olan amillər // – Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutu, Elmi əsərlər. Mütərcim, – 2019. – Cild 86. №3, – s.259-261.

10. Rzayeva, F.Ə. The use of ICT and Multimedia in the organization of the independent work of students // The 6th International youth conference "Perspectives of science and education" SLOVO\WORD, – New York, USA: – November 10, – 2019. – p.41-45.

11. Rzayeva, F.Ə. Independent work of students in the process of learning the English language // Педагогика и психология в современном мире: теоретические и практические исследования. сб. ст. по материалам XXV между-нар. науч.-практ. конф. – Москва: Интернаука, – 2019. №7(25), – p.98-102.

12. Rzayeva, F.Ə. Types and forms of independent work of students learning a foreign language // Sumqayıt Dövlət Universiteti, Elmlərarası inteqrasiya: linqvodidaktik, linqvokulturoloji və psixolinqvistik aspektlər. Beynəlxalq elmi konfransın materialları. – Sumqayıt. – 19-20 dekabr, – 2019. – s.97-100.

13. Rzayeva, F.Ə. Ali təhsil müəssisələrində xarici dilin tədrisi prosesində tələbələrin müstəqil işlərinin təşkili ilə bağlı vəziyyətin didaktik təhlili // – Bakı: Azərbaycan Respublikasının Təhsil

İnstitutu, Elmi əsərlər. Mütərcim, – 2020. – Cild 87. №5, – s.128-132.

14. Rzayeva, F.Ə. Tələbələrin müstəqil işlərinin təşkilində istifadə olunan bəzi təlim metodları // – Bakı: Bakı Qızlar Universiteti, Elmi əsərlər. Orxan, – 2020. – Cild 11. №3(43), – s.29-35.

15. Rzayeva, F.Ə. Kompetensiyalı təlim modeli şəraitində tələbələrin müstəqil işlərinin sistemləşdirilməsi // – Bakı: Bakı Qızlar Universiteti, Elmi əsərlər. Mütərcim, – 2020. – Cild 11. №4(44), – s.89-96.

16. Rzayeva, F.Ə. Ali məktəblərdə müstəqil işin təşkili səviyyələri və mərhələləri // – Bakı: Bakı Slavyan Universiteti, Elmi əsərlər (ictimai-siyasi seriyası). Mütərcim, – 2020. №2, – s.78-86.

17. Rzayeva, F.Ə. Ali məktəblərdə ingilis dilinin tədrisi prosesində tələbələrin müstəqil işlərinin təşkilinin elmi-nəzəri didaktik əsasları // – Bakı: Azərbaycan Dövlət Pedaqoji Universiteti, Pedaqoji Universitetin xəbərləri. ADPU mətbəəsi, – 2020. – Cild 68. №2, – s.57-67.

18. Rzayeva, F.Ə. Ali təhsil müəssisələrində tələbələrin müstəqil işlərinin təşkilinə dair elmi-nəzəri psixoloji fikirlər // Azərbaycan elm mərkəzi, “Elm iş” impakt faktorlu Beynəlxalq elmi jurnal, Humanitar və ictimai elmlər üzrə II Beynəlxalq elmi konfransın materialları. – Bakı. – 18 dekabr, – 2020. – s.137-139.

19. Rzayeva, F.Ə. Tədris prosesində tələbələrin müstəqil işlərinin təşkilinə elmi-nəzəri metodoloji baxışlar // Azərbaycan elm mərkəzi, “Elm iş” impakt faktorlu Beynəlxalq elmi jurnal, Humanitar və ictimai elmlər üzrə II Beynəlxalq elmi konfransın materialları. – Bakı. – 22 dekabr, – 2020. – s.60-62.

20. Rzayeva, F.Ə. Motivation of students for independent work during training activities // Journal of Education and Practice, – 2020. – Volume 11. №6, – p.202-206.

21. Rzayeva, F.Ə. Conceptual approaches to the organization of independent work of students in higher educational institutions” // – Los Angeles: Studies in English Language Teaching, Scholink INC. – 2020. – Volume 8. №3, – p.157-165.

22. Rzayeva, F.Ə. Motivation of students for independent work during training activities // Інноваційна педагогіка. Науковий журнал. Видавничий дім «Гельветика», – 2020. №29, – p.84-88.

23. Rzayeva, F.Ə. İngilis dilinin tədrisində tələbələrin müstəqil işlərinin təşkilində İKT və multimedia vasitələrindən istifadə // – Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutu, Elmi əsərlər. Mütərcim, – 2021. – Cild 88. №1, – s.127-132.

24. Rzayeva, F.Ə. Təlim prosesində müstəqil işin təşkili zamanı yaradıcı fəaliyyətin rolu // – Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutu, Elmi əsərlər. Mütərcim, – 2021. – Cild 88. №2, – s.158-163.

25. Rzayeva, F.Ə. Tələbələrdə müstəqil fəaliyyətin təşkili məsələləri // – Bakı: Qızlar Universiteti, Elmi əsərlər. Mütərcim, – 2021. – Cild 12. №1(45), – s.92-99.

26. Rzayeva, F.Ə. Müstəqil işin təşkilində tələbəyönümlü təlim metodikasının səmərəli yolları // – Bakı: Bakı Slavyan Universiteti, Elmi əsərlər (ictimai-siyasi seriyası). Mütərcim, – 2021. №1, – s.57-65.

27. Rzayeva, F.Ə. Müstəqil işin təşkilində layihə metodunun mahiyyəti // – Gəncə: Gəncə Dövlət Universiteti, Elmi xəbərlər (Fundamental, humanitar və təbiət elmləri seriyası), – 2021. №1, – s.105-111.

28. Rzayeva, F.Ə. Xarici dil dərslərində şagirdlərdə yaradıcı təfəkkürün formalaşdırılması imkanları // – Bakı: Bakı Elm-təhsil mərkəzi, Pedaqogika (pedaqogika, psixologiya elmləri üzrə elmi-nəzəri-metodik jurnal). Bakı Elm-təhsil mərkəzinin mətbu orqanı, – 2021. №1, – s.79-87.

29. Rzayeva, F.Ə. Organization of self-directed learning in teaching english in universities // – України: Дрогобицького Державного Педагогічного Університету імені Івана Франка. Актуальны питання гуманітарных наук міжвузівськй збiник наукових праць молодих вчених. Видавничий дім «Гельветика», – 2021. – Вип.36, – Том 3. – p.197-203.

30. Rzayeva, F.Ə. Organizatıon of self-directed learning in teaching English in universities // – Cuba: Conrado, Revista

pedagógica de la Universidad de Cienfuegos Mayo-Junio, – 2022. – Volum.18. Núm. 86, – p.360-366.

31. Rzayeva, F.Ə. Methods, and features of teaching english to groups of students with non-language specializations // UNIVERSIDAD Y SOCIEDAD, Scientific journal of the University of Cienfuegos. – 2024. – Vol.16. Num.2, – p.60-65.

32. Rzayeva, F.Ə. The role of independent work in distance education // "Молодь і ринок" щомісячний науково-педагогічний журнал, – Квітен. – 2024. №4(224), – p.73-76.

Dissertasiyanın müdafiəsi 25 aprel 2025-ci il tarixdə saat $14^{00}$-da Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən BED 2.15/1 Birdəfəlik Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1000, Bakı, Ü. Hacıbəyli küçəsi, 68

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kitabxana-İnformasiya Mərkəzində tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Dövlət Pedaqoji Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 19 mart 2025-ci il tarixdə zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 17.03.2025
Kağızın formatı: 60x84 1/16
Həcm: 79947 işarə
Tiraj: 100 nüsxə